

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
**Ümummilli Lider HEYDƏR ƏLİYEV**

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
31 mart 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU ilə Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında əməkdaşlıq məsələləri müzakirə edilib**

→Səh.2

**Tomar Politexnik Universiteti ilə arasında anlaşma memorandumu imzalanıb**

→Səh.3

**BDU-da Elm Gününə həsr olunmuş tədbir keçirilib**

→Səh.3

**BDU-nun 5 tələbəsi təhsilini İsrailin Holon Texnologiya İnstitutunda davam etdirir**

→Səh.5

**Qan yaddaşımız - mart soyqırımı**

→Səh.8

**BDU-da "1918-ci il mart soyqırımının tarixi, siyasi və hüquqi müstəvidə təhlili" mövzusunda dəyirmi masa**

→Səh.9

**BDU-nun dosenti işğaldan azad edilmiş ərazilərdə təhsil sisteminin bərpası haqqında məruzə edib**

→Səh.13



**Təhsil Nazirliyi ilə "Microsoft" şirkəti arasında əməkdaşlıq genişləndirilir**

→Səh.8



**Pakistanın ölkəmizdəki səfiri BDU-nun qonağı olub**

→Səh.2




**"Nizami Gəncəvi ili" çərçivəsində akademik Rafael Hüseynovun iştirakı ilə ilk tədbir keçirildi**

→Səh.4



**BDU ilə Qətər Universiteti arasında əməkdaşlığa dair onlayn görüş**

→Səh.5



## Novruz bayramınız mübarək!

**Novruz qədim tarixə malik olan bayramlarımızdandır. Novruz nə bir məzhəb, nə də bir dinin bayramıdır. Bu bayram baharın gəlməsi münasibətilə qeyd edilir. Novruz astronomik hadisə ilə bağlı gündür. Həmin gün şimal yarımkürəsində astronomik yaz girir, gecə-gündüz bərabərləşməsi baş verir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayır, bu münasibətlə şənliklər keçirirlər.**

***Novruz Azərbaycanda, Türkiyədə, Özbəkistanda, Türkmənistanda, Qazaxıstanda, Qırğızıstanda, Albaniyada, Makedoniyada bayram kimi qeyd edilir. Hətta, İraqda və Əfqanıstanda Novruz martın 21-də astronomik Günəş təqviminə əsasən, rəsmi şəkildə yeni ilin başlanğıcı hesab olunur.*** Lap qədimlərdən astronomik Günəş təqviminə əsasən Novruz yeni ilin başlanğıcı sayılırdı. Ömər Xəyyamın "Novruznamə"sində, Səlcuqlu Vəzir Nizami Əl-Mülkün "Siyasətnaməsi"ndə, Mahmud Kaşğarlının "Divan-i-Lüğət-it-türk"ündə, Nizami Gəncəvinin əsərlərində, Məlik şahın təqvimində, Qazi Bürhanəddinin, Səfəvi şahı Şah İsmayılın divanında türklərin yaşam tərzini, adət-ənənəsini əks etdirən Novruz bayramı haqqında məlumatların yer alması bu bayramın qədim tarixə malik olduğunu göstərir. Məlik şahın Ömər Xəyyama təqvim hazırlanması göstərişini verərkən onun qarşısına qoyduğu şərt ilin başlanğıc gününün məhz yaz gecə-gündüz bərabərliyi ilə üst-üstə düşməsi idi. Ömər Xəyyam 1074-cü ildə hazırladığı və Məlik şahın şərəfinə "Məlik şah cədvəli", "Sultan təqvimi", "Təqvimi-cəlaliyyə" adlandırdığı təqvimdə ilin başlanğıc günü Novruz bayramı ilə üst-üstə düşür. Novruz bayramı Azərbaycanda, İranda olmuş Avropa səyyahlarının xatirələrində də əks olunmuşdur. Alman alimi Adam Oleari XVII əsrin birinci yarısında Səfəvilər dövlətinin tərkibində olan Şamaxıda Novruz bayramında iştirak etmişdir. Adam Olearinin xatirələri Novruz bayramının geniş şəkildə keçirildiyini təsdiq edir. Tədqiqatçının sözlərinə görə, həmin gün astroloq Günəşin gecə ilə gündüzün bərabərləşəcəyini izləyir, həmin an çatanda isə bunu bərkdən elan edirdi.

Bu bayram həm xalq adət-ənənəsini, həm mifoloji dünyagörüşünü, həm də sakral bilikləri özündə birləşdirir. Türk xalqlarının qədim dastanlarından olan "Ergenekon" dastanında da türklərin Ergenekondan çıxdıqları gün məhz 21 marta təsadüf edir. Bu günə Hürmüz günü, yəni Tanrı günü deyilərdi. Həmin günə hazırlaşan insanlar dörd müqəddəs ünsürlə paklanardılar. Axır Çərşənbə isə ən əziz bayramlardan hesab olunardı. Həmin adətlərdən bəziləri indiyə qədər saxlanılmışdır. Məhz buna görə də bu bayramın qədim adlarından da biri Ergenekondur. Bundan başqa Novruza Bozqurd, Çağan, Nevruz, Sultan Nevruz, Mart Doqquzu və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənilib. Bir çox mənbələrdə bu bayramı dinlə də bağlayaraq, Novruzu "Adəmin yaradıldığı gün", "Atəşpərəstlikdən qalan bir bayram", "Yunus peyğəmbərin balığın qarnından çıxdığı gün", "Həzrəti Məhəmmədin peyğəmbərlik xələtini geydiyi gün", "İmam Əlinin xəlifəliyə gəldiyi gün", "Küsülülərin barışması üçün bayram" və başqa adlarla da göstərilir.

Novruz bayramı qabağı Çərşənbə axşamlarının keçirilməsi ilə bağlı da bir sıra maraqlı məqamlar özünü göstərir. Bəzi tədqiqlərə görə, e.ə. 487-ci ildə Şərq alimləri ayları, illəri göstərən təqvimi çərşənbə axşamında tərtib ediblər. Çərşənbə axşamlarının da qeyd olunması bununla bağlıdır. İnanca görə isə bəzi xalqlarda çərşənbə günü ağır gün hesab olunur.

(Ardı səh. 2)

# Təhsil Nazirliyi ilə “Microsoft” şirkəti arasında əməkdaşlıq genişləndirilir




***Martın 3-də Təhsil Nazirliyi və “Microsoft” şirkəti arasında keçirilmiş onlayn tədbirdə birgə təhsil layihələri üzrə əməkdaşlığın davam etdirilməsi barədə niyyət sənədi imzalanıb.***

Təhsil naziri Emin Əmrullayev və "Microsoft" korporasiyasının vitse-prezidenti Anthony Salcito tərəfindən imzalanan sənədin məqsədi tərəflər arasında təhsil sahəsində əməkdaşlığı genişləndirmək və birgə innovativ layihələrin icrasını təmin etməkdir.

Niyyət sənədi çərçivəsində 4 istiqamət üzrə birgə fəaliyyətin aparılması nəzərdə tutulub.

Belə ki, “Təhsildə rəqəmsal liderlik və siyasətin formalaşdırılması” istiqaməti üzrə birgə fəaliyyətə təhsilin rəqəmsal transformasiyası istiqamətində ümumtəhsil və ali təhsil sahələrində strateji əməkdaşlıq, Təhsil Nazirliyinin informasiya sistemləri və elektron xidmətlərin təkmilləşdirilməsi, həmçinin “Microsoft” korporasiyasının formalaşdırdığı “Rəqəmsal transformasiya üzrə dünyanın lider ölkələri” koalisiyasında Azərbaycanın iştirakı daxildir. Tərəflər eyni zamanda, “Microsoft” təhsil proqramlarının tətbiq olunduğu nümunəvi məktəbin qurulması üzrə əməkdaşlıq etməyə razılıq əldə ediblər. “Tədris və öyrənmə” istiqaməti üzrə əməkdaşlıq nəticələrə əsaslanan şagird mərkəzli öyrənmə, tədrisdə fərdi yanaşma, XXI əsr bacarıqları, gələcəyin müəllim modeli və analitik düşüncənin formalaşması üzrə birgə fəaliyyəti əhatə edir. Tərəflər pedaqoji ixtisas üzrə təhsil alan tələbələrin işə qəbuldan əvvəl texnoloji biliklərinin artırılması üçün xüsusi proqramların tətbiqini planlaşdırırlar. Eyni zamanda, bütün təhsil pillələri üzrə sənaye məzmununun və sertifikasiyanın tədrisə tətbiqi üzrə əməkdaşlıq ediləcək. “Rəqəmsal mühitin formalaşdırılması” istiqaməti bulud texnologiyaları və təhlükəsiz proqram təminatlarının bütün təhsil pillələri üzrə tətbiqini özündə ehtiva edir. Qeyd olunan istiqamət üzrə xüsusi yer tutan fəaliyyətlər “Microsoft” süni intellektin Azərbaycan dilini tanıması və təhsildə qərarvermənin təkmilləşdirilməsi üçün yeni nəsil təhlil alətlərinin tətbiqi üzrə birgə əməkdaşlığın qurulmasıdır. “Təhsilalan və məktəbin uğuru” istiqaməti üzrə isə “Microsoft” korporasiyasının STEAM üzrə məzmunun inteqrasiyası, istənilən məkan, zaman və tempdə təhsilverənlərin texnologiyalar üzrə ixtisaslarının artırılması və sertifikatlaşdırması, yenilikçi fikirlərin, texniki həllərin yerli və beynəlxalq mühitdə təqdimatı, innovativ ekspert modelləri üzrə təhsil almaq imkanlarını özündə ehtiva edir.

***Mənbə: www.edu.gov.az saytı***

# Pakistanın ölkəmizdəki səfiri BDU-nun qonağı olub



***Martın 2-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Pakistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Hayee ilə görüşüb.*** Səfiri salamlayan rektor əvvəlcə 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi altında müzəffər ordumuzun əzəli torpaqlarımızı işğaldan azad etməsinin qürurunu yaşadığını qeyd edib. Rektor səfirlə görüşdə iki ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu nəzərə çatdıraraq Pakistan ali məktəbləri ilə BDU arasında qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyini vurğulayıb.

Görüşə görə BDU rəhbərliyinə təşəkkürünü bildirən səfir Bilal Hayee BDU-da olmaqdan məmnun olduğunu söyləyib. Qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmlənməsində Universitetin dəstəyini yüksək qiymətləndirən səfir bunun iki ölkə arasında əlaqələrin genişləndirilməsi istiqamətində əhəmiyyətli olduğunu qeyd edib.

Martın 2-də keçirilən görüş BDU və Paksitan ali məktəbləri arasında təhsil sahəsində əlaqələrin gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi, iki ölkə arasında müəllim-tələbə mübadiləsi, elm, tədris və digər sahələr üzrə əməkdaşlıq ilə bağlı fikir mübadiləsi davam edib, gələcək perspektivlər müzakirə olunub.

# BDU ilə Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında əməkdaşlıq məsələləri müzakirə edilib

***Martın 10-da Bakı Dövlət Universitetində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) Tədris Mərkəzinin nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə iki qurum arasında əlaqələrin gücləndirilməsi və vergi hüququ üzrə mütəxəssislərin hazırlanması sahəsində birgə əməkdaşlıq imkanları müzakirə edilib. Tədbirdə DVX-nin Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Mirəli Kazımov bildirib ki, vergi sisteminin müasir dövrün tələblərinə uyğun şəkildə inkişafına, bu istiqamətdə dövlət, habelə biznes subyektləri üçün faydalı olan müxtəlif layihələrin həyata keçirilməsi işlərinə xüsusi diqqət yetirilir. Qarşılıqlı əməkdaşlıq və resursların birləşdirilməsi sayəsində birgə görülməsi mümkün olan işlər üzrə Tədbirlər Planının ilkin layihəsi və onun müvafiq əsaslandırılması hazırlanıb.

BDU-nun rektoru Elçin Babayev ikitərəfli əməkdaşlığın perspektivlərini yüksək qiymətləndirib, qeyd edilən Tədbirlər Planında nəzərdə tutulan istiqamətlər üzrə müzakirələrin keçirilməsini məqsədəmüvafiq hesab edib.

Əməkdaşlıq çərçivəsində dövlət vergi orqanlarında və əmək münasibətləri bazarında vergi hüququ sahəsi üzrə ixtisaslı kadrlara olan ehtiyacların təmin edilməsi məqsədilə birgə kadr hazırlığı həyata keçiriləcək.

*(əvvəli 1-ci səhifədə)*

# Novruz bayramınız mübarək!

### *Novruzda Ayın rəmzi kimi şəkərbura, badambura, Günəşin rəmzi kimi qoğal, şəkərçörəyi simvolizə olunur*

Dədə-babalarımız da bayrama dörd çərşənbə qalmış onu şadyanalıqla qarşılayırlar. Astronomiya və münəccimliyin böyük bilicisi, dahi Azərbaycan şairi Şeyx Nizami Gəncəvi "Yeddi gözəl" poemasında həftənin çərşənbə axşamını bayramın rəmzi olan qırmızı rəngdə verib.

Novruz şənliklərinin əsas personajları Kosa və Keçəldir. Keçəllə Kosanın məzhəkəli tamaşası müqabilində yazla qışın bir-birilə mübarizəsi əks olunur. Qış öz yerini yaza təhvil vermək istəmir, yaz isə bu yeri əldə etməyə çalışır.

Tamaşa zamanı kosanın "ölübdirilməsi" əski inanclardan gəlir. Şaman ritualı zamanı da fiziki hərəkəti ilə ruhi hərəkətin çulğalaşmasının şahidi oluruq. Bu oxşarlıq həm də Kosanın geyimində özünü göstərir. Belə ki, Kosanın geyimindəki əlamətlər - qurşağındakı və boynundakı zınqrovlar, başındakı şiş papaq, əynindəki tərsinə çevrilmiş kürk qam-şaman geyiminin rəmzlərindəndir. Səməni sözünün etimologiyasını da məhz şamanlarla bağlayırlar. Belə ki "sümen/suma" sözü altayca və monqolca "şaman" mənasını daşıyır. Səməni də bolluğun, bərəkətin, cücərmiş torpağın rəmzidir. Səmənidən hazırlanmış halva insana enerji verir. Səməninin göyərdilməsi Novruz bayramının əsas mərasimlərindəndir.

Mərasim yeməkləri, eləcə də Novruz şirniyyatları xalqın əməli bilikləri, zövqü, təsərrüfat məşğuliyyəti, mifoloji dünyagörüşü ilə əlaqədar yaranmışdır. Novruz şirniyyatlarında türk kosmoqonik dünyagörüşünün simvolları öz əksini tapmışdır. Novruzda Ayın rəmzi kimi şəkərbura, badambura, Günəşin rəmzi kimi qoğal, şəkərçörəyi simvolizə olunur. Paxlavanın romb şəklində bişirilməsi də türk kosmoqonik təfəkkürü və sakral bilikləri özündə birləşdirən mifoloji dünyagörüşlə bağlıdır. Paxlavanın romb şəklində verilməsi ulduzun rəmzidir. Lakin Şumerlərdə Günəş romb işarəsi ilə verildiyi üçün Günəşin simvolu kimi də götürülür.

Bəzi bölgələrdəki inanclara görə, paxlavanı məhz qadın bişirməlidir, bunu isə doğuluşla bağlılıq ilə əsaslandırırlar. Bayram günü aş bişirilməsi, qazan asılması isə həmin evin il boyu bərəkətli olması inancından doğur.

Tonqal üstündən atlanmaq isə qədimdən gələn bir ritualdır. Onu çox zaman Tanrılara qurban vermə ritualı ilə eyniləşdirirlər. Bunulla da insanlar tonqal üstündən atlanaraq öz ağırlıqlarını, uğursuzluqlarını tonqalda yandıracaqlarına inanarlar.

Azərbaycan xalqı milli dəyərlərə, milli ənənələrə sadiqdir. Azərbaycan dövlətini bu dəyərlər üzərində quran Ümummilli lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirmişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir". Bu dəyərlər Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunda davam etdirilir. Cənab Prezident Novruz bayramını birmənalı şəkildə milli xüsusiyyətlərin - milli varlığın qorunma vasitəsi hesab edir.

Azərbaycan Respublikasının vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramı YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi isə martın 21-ni “Beynəlxalq Novruz Günü” elan etmişdir.

***Səhər Orucova***
*filologiya üzrə elmlər doktoru, professor, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri*

# BDU ilə Uşak Universiteti arasında Mövlanə mübadilə protokolu imzalanıb

***Martın 30-da Bakı Dövlət Universiteti ilə Türkiyənin nüfuzlu universitetlərindən olan Uşak Universiteti arasında Mövlanə mübadilə proqramı çərçivəsində mübadilə protokolu imzalanıb.*** Protokol tələbə və professor-müəllim heyətinin mübadiləsini, ikitərəfli əməkdaşlıq məsələlərini nəzərdə tutur.




Qeyd edək ki, əsası 2006-ci ildə qoyulan universitetdə hazırda 12 fakültə (Diş həkimliyi, Pedaqogika, Fənn-ədəbiyyat, İncəsənət, İqtisadiyyat və idarəetmə, İnformasiya və kommunikasiya, İslam elmləri, Mühəndislik, Memarlıq, Səhiyyə, İdman, Tibb və s), 3 kollec, 11 peşə məktəbi və 27 elmi araşdırma mərkəzi fəaliyyət göstərir. Eyni zamanda, sözügedən universitetdə ikili ixtisas proqramları üzrə təhsil də həyata keçirilir.

# Tomar Politexnik Universiteti ilə anlaşma memorandumu imzalanıb

***Bakı Dövlət Universiteti ilə Portuqaliyanın Tomar Politexnik Universiteti arasında Erasmus KA 107 layihəsi çərçivəsində qarşılıqlı anlaşma memorandumu imzalanıb.*** İsveçin Linköpinq Universitetinin koordinatorluq etdiyi "Partnyor universitetlərdə mobil aplikasiyaların və oyun dizaynı üzrə magistr proqramlarının inkişafı" - MAGnUS layihəsi (Erasmus KA 2) çərçivəsində BDU Portuqaliyanın Tomar Politexnik Universiteti ilə əməkdaşlıq edir.




Qeyd edək ki, 1982-ci ildə əsası qoyulmuş Tomar Politexnik Universitetində 2300-dən çox tələbə təhsil alır. 300-yə yaxın akademik heyətin çalışdığı universitetdə üç məktəb fəaliyyət göstərir.

# Elm Gününə həsr olunmuş tədbir keçirilib

***Martın 29-da Bakı Dövlət Universitetində 27 mart - Elm Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev son illər ölkəmizdə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında elmin əhəmiyyətinin artırılması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində həyata keçirilən dövlət tədbirləri barədə məlumat verib. E.Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə "Elm günü"nün təsis edilməsi haqqında 2018-ci il 9 aprel tarixli Sərəncamının elmin inkişafı və təbliğinə göstərilən diqqətin bariz nümunəsi olduğunu vurğulayıb. Rektor çıxışında Elm Gününün təsis edilməsi, Azərbaycanda elmə verilən yüksək dəyər, BDU-da aparılan elmi-tədqiqatların istiqamətləri barədə məlumat verib, elmin inkişafında gənclərin üzərinə düşən mühüm vəzifələrdən söz açıb. Təhsil sahəsində elmi tədqiqat və innovasiyaların artırılmasının prioritet məqsədlərindən biri olduğuna diqqət çəkib.

BDU-nun təşkil etdiyi elmi tədbirlərdə Universitetin sıx əlaqələr saxladığı Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, eyni zamanda BDU-nun Qazax filialı, İqtisadiyyat və Humanitar Kollec, "Gənc istedadlar" liseyinin tələbə və şagirdlərinin iştirak etdiyini bildirib.

Sonra elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov "Sabahın alimləri" X respublika müsabiqəsinin qalibləri barədə məlumat verib. Bildirib ki, müsabiqədə Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyinin şagirdləri 21 layihə ilə iştirak etmək hüququ qazanıb. Münsiflər heyətinin qərarına görə, müxtəlif kateqoriyalar üzrə 12 layihə qaliblər sırasına seçilib. Liseyin X sinif şagirdləri Tamilla Süleymanova və Rəfsan Həbibullayevin biologiya istiqamətində "Ximer RNT-lər və zülallar" və X sinif şagirdi Əli Əkbərzadənin Kompüter elmləri istiqamətində "Tədrisdə virtual laboratoriyanın yaradılması və onun tətbiqi" adlı layihələri birinci yeri qazanaraq, Amerika Birləşmiş Ştatlarında təşkil olunacaq İntel İSEF - Beynəlxalq Mühəndislik Sərgisində ölkəmizi təmsil etmək hüququ əldə ediblər.

Daha sonra "Sabahın alimləri" X respublika müsabiqəsinin qaliblərinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

AMEA-nın müxbir üzvü, BDU rektorunun elm və innovasiyalar üzrə müşaviri, professor Aydın Kazımzadə "Elmin təhsilə inteqrasiyası" mövzusunda məruzə ilə çıxış edib, Azərbaycanda elmin inkişafına göstərilən diqqət və qayğıdan, ölkəmizdə ali təhsil məktəblərinin flaqmanı olan Bakı Dövlət Universitetinin intellektual nəslin formalaşmasındakı rolundan bəhs edib, elmin təhsilə inteqrasiyası barədə fikirlərini bölüşüb, bu sahədə BDU-da görülən işlərdən bəhs edib.

Clarivate Analityсs Təhsil proqramları şöbəsinin müdiri Valentin Boqorov Web of Science məlumatları əsasında "Bakı Dövlət Universitetində elmi nailiyyətlər" mövzusunda təqdimatla çıxış edib. BDU alimlərinin son 20 ildə 3131, 2016-2021-ci illərdə 1609, 2020-ci ildə isə 393 məqaləsinin Web of Science bazasında indekslənən jurnallarda çap olunduğunu bildirib. Bu nəticələrə əsasən BDU-nun Azərbaycan universitetləri arasında birinci yerdə qərarlaşdığını deyib.

Daha sonra 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" müsabiqəsinin yekunları haqqında məlumat verən rektor E.Babayev müsabiqənin məqsədinin BDU-nun il ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş əməkdaşlarının mükafatlandırılması olduğunu diqqətə çatdırıb.

Müsabiqənin nəticələrinə əsasən, təbiət və texnika elmləri üzrə Biologiya fakültəsinin professoru Rövşən Xəlilov I, Ekologiya və torpaqşünaslıq fakültəsinin aparıcı elmi işçisi Kamran Mahmudov II, Tətbiqi riyaziyyat ETİ-nin baş elmi işçisi Vaqif Quliyev III, humanitar və ictimai elmlər üzrə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin professoru Elşar Orucov I, Sosial elmlər və psixologiya fakültəsinin baş müəllimi Kamilə Kazımova II, Filologiya fakültəsinin dosenti Qızılgül Abdullayeva isə III yerlərə layiq görülüblər.

Xatırladırıq ki, müsabiqədə 1-ci yerin qalibləri 2500 manat, 2-ci yerin qalibləri 1500 manat, 3-cü yerin qalibləri isə 1000 manat pul mükafatı və diplomla təltif ediləcəklər.

# Tarix fakültəsində növbəti elmi seminar

***Tarix fakültəsində "Sosialist sisteminin dağılması və Slavyan dünyası" mövzusunda onlayn elmi seminar keçirilib.***

Seminar iştirakçılarını salamlayan Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova karantin dövründə keçirilən elmi seminarların əsas məqsədinin fakültə əməkdaşlarının, gənc tədqiqatçıların, magistrantların elmi fəaliyyətlərinin stimullaşdırmaqdan ibarət olduğunu bildirib.

Seminarda Slavyan ölkələri tarixi kafedrasının professoru Fazil Baxşəliyev "Sosialist sisteminin dağılması və Slavyan dünyası" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Avropada yerləşən sosialist ölkələrinin dərin böhran, "yenidənqurma", "aşkarlıq" siyasəti, SSRİ-nin dağılması, keçmiş sosialist ölkələrinin SSRİ-nin təzyiqindən çıxaraq müstəqil siyasət yeritməyə başlaması, qısa müddət ərzində əksər slavyan ölkələrinin NATO, Avropa İttifaqı və digər nüfuzlu beynəlxalq təşkilatlara üzv olması, müasir sosial-siyasi proseslər, iqtisadi vəziyyət və Azərbaycan Respublikası ilə əlaqələrindən bəhs olunub.

# Elm Gününə həsr olunmuş növbəti mühazirə oxunub

Bakı Dövlət Universitetində 27 mart - Elm Gününə həsr olunmuş növbəti mühazirə keçirilib. BDU-nun Elmi-təşkilati şöbəsinin müdiri Mahir Pirquliyev BDU-nun, Mingəçevir Dövlət Universiteti və Lənkəran Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinə "Kosmologiya: Kainatın başlanğıcı və sonu" mövzusunda onlayn mühazirə oxuyub.

M.Pirquliyev kosmologiya elmi, kainatın quruluşu, keçmişi, bu günü və gələcəyi, kainatın yaranması haqqında, müasir nəzəriyyələr haqqında mülahizələr barədə ətraflı məlumat verib. Kosmologiyanın və bütövlükdə elmin inkişafı üçün Kainatı bir bütün olaraq başa düşməyin son dərəcə vacib olduğunu qeyd edib. Mühazirədə bununla bağlı müxtəlif nəzəriyyə və ideyaların eksperimental yoxlanılması, müşahidə məlumatları ilə təsdiqlənməsi, tədqiqat nəticələrinin başa düşülməsi və müqayisəsi, həmin nəzəriyyələrin adekvat qiymətləndirilməsində xüsusi rol oynadığı da diqqətə çatdırılıb.

Mühazirə çoxsaylı sualların cavablandırılması ilə başa çatıb.

# "Nizami Gəncəvi ili" çərçivəsində akademik Rafael Hüseynovun iştirakı ilə ilk tədbir keçirildi

***Bakı Dövlət Universitetində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Sərəncamı ilə əlaqədar olaraq ilk onlayn tədbir keçirilib. Tədbirdə Şərqşünaslıq fakültəsinin rəhbərliyi, professor-müəllim heyəti, tələbə və magistrantlar, BDU-nun rektoru Elçin Babayev, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik, millət vəkili Rafael Hüseynov iştirak edib.***

Tədbirin moderatoru İran filologiyası kafedrasının müdiri professor Mehdi Kazımov Nizami Gəncəvi yaradıcılığından, onun dünya və Şərq ədəbiyyatının bədii fikir salnaməsində əhəmiyyətli rolundan söz açaraq dahi şairin əsərlərinin hər zaman dünya şərqşünaslıq elminin diqqət mərkəzində olduğunu qeyd edib.




Akademik Rafael Hüseynov "Nizami Gəncəvinin ötürücülük və qovuşduruculuq missiyası" mövzusunda məruzə edərək dahi şair və mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığının fəlsəfi fikir tarixində rolundan bəhs edib. Nizami irsinin sadəcə ədəbiyyat deyil, musiqi, memarlıq, ictimai-siyasi düşüncənin inkişafına təkan verdiyini diqqətə çatdırıb. Nizami Gəncəvinin kamil insan, ədalətli hökmdar modeli haqqında fikirlərinin onun "Xəmsə"sində əsas xətti təşkil etdiyini qeyd edib. Akademik Rafael Hüseynov çıxışında həmçinin Bakı Dövlət Universitetində Nizami irsi ilə bağlı müxtəlif elm sahələri üzrə məqalələr toplusunun nəşr edilməsinin, Şərqşünaslıq fakültəsində kalliqrafiya sənətinin tədrisinin böyük əhəmiyyət kəsb etdiyini də vurğulayıb.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev çıxış edərək BDU-da "Nizami Gəncəvi ili" çərçivəsində həyata keçiriləcək tədbirlər planı haqqında məlumat verib. Bu məqsədlə xüsusi komissiyanın yaradıldığını, silsilə elmi konfransların, simpoziumların, elmi seminarların keçiriləcəyini, dahi şairin zəngin söz xəzinəsinə həsr olunmuş sərgilərin təşkil olunacağını, eyni zamanda akademik Rafael Hüseynovun ideyasını dəstəkləyərək BDU-da nizamişünaslığa həsr olunmuş toplunun nəfis şəkildə çap olunacağını qeyd edib. Rektor Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə Bakı Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində mütəmadi olaraq belə mühazirə və qiraətlərin təşkil olunmasının dahi şairin ədəbi irsinin öyrənilməsi baxımından əhəmiyyətli olacağını bildirib. BDU tələbələrinin Nizami irsinin geniş tədqiq olunduğu ölkələrin elm və təhsil müəssisələrində təcrübə keçmələri, kadr hazırlığı istiqamətində görüləcək işlərdən bəhs edib.

# 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib

Martın 5-də Bakı Dövlət Universitetində 8 mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycanda və BDU-da elm və təhsilin inkişafında, ictimai həyatında qadınların yeri və rolu mövzusunda çıxışlar olub.

BDU-nun rektoru Elçin Babayev Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadınları, eləcə də Universitetin xanım əməkdaş və tələbələrini təbrik edib. Rektor qeyd edib ki, ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmət və ehtiramla yanaşıb. Dahi rəhbər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi. Bu gün həmin siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Hazırda ölkəmizdə qadınların dövlət qurumlarında, seçkili orqanlarda irəliyə çəkilməsi, onların potensialından istifadə olunması cəmiyyətimizin aparıcı hissəsi olan qadınların imkanlarından yetərincə bəhrələnmək siyasətinə sadiqliyini ortaya qoyur.




E.Babayev bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər bu gün Azərbaycan qadınının nə qədər fəal olduğunu bir daha təsdiq edir. Rektor çıxışı zamanı ölkənin ictimai-siyasi həyatında mühüm nailiyyətlərin əldə edilməsində BDU ailəsinin üzvü olan qadınların da böyük əməyinin olduğunu bildirib, onların üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələrini yüksək qiymətləndirib.

Daha sonra Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri , BDU-nun kafedra müdiri professor Hicran Hüseynova, Milli Məclisin üzvü, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, BDU-nun professoru Jalə Əliyeva, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, BDU-nun Gender və psixologiya kafedrasının müdiri professor Rəna İbrahimbəyova, BDU-nun Cinayət hüququ və kriminologiya kafedrasının müdiri professor Şəhla Səmədova, BDU-nun Nanoaraşdırmalar Elmi-tədqiqat Mərkəzinin elmi işçisi Aynurə Kərimova qadınların ölkənin ictimai həyatında, elm və təhsil, mədəniyyət və incəsənətin inkişafındakı rolundan bəhs edən çıxışlar ediblər. Çıxışlarda qadının ailədə, işdə və cəmiyyətdə layiqli yer tutmasının dövlətimizin prioritet istiqamətlərindən olması, ölkəmizdə qadınlar üçün geniş imkanların yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi haqqında ətraflı məlumat verilib.

# BDU-da "Kurikulum modelində dərsin şagirdlərin idrak fəallığının yüksəldilməsində rolu" mövzusunda elmi seminar

***Sosial elmlər və psixologiya fakültəsində onlayn elmi seminar keçirilib. Fakültənin magistrantı Fatma İsayeva "Kurikulum modelində dərsin şagirdlərin idrak fəallığının yüksəldilməsində rolu" mövzusunda məruzə ilə çıxış edib.***

Seminarda şagirdlərdə biliklərə yiyələnmək həvəsinin yaradılması üçün metod və təlim texnogiyalarının yeniliklərindən danışılıb, idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslandığı qeyd edilib. Real ziddiyyətlərdən yaranan emosiyaların əqli ehtiyatların səfərbərliyini təmin etdiyinə, idrak fəaliyyətini şövqləndirdiyinə, diqqəti uzun müddət cəmləməyə imkan yaratdığına diqqət çəkilib. Məruzəçi təlim-tərbiyə prosesində şagirdlərin öz fikirlərini sərbəst söyləməyə, arzu və istəklərinə müvafiq məşğuliyyətlər seçməyə yaradılan şəraitin əhəmiyyətindən də söz açıb.



Daha sonra professor Ləzifə Qasımova və dosent Kamalə Pənahova şagirdlərin idrak fəallığının inkişafında müasir tədris metodikalarının əhəmiyyətindən danışıblar.

Seminar mövzu ətrafında müzakirələrlə davam edib.

# "4D TOMOQRAFİYASI" mövzusunda elmi seminar

***Bakı Dövlət Universitetinin Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunda növbəti onlayn elmi seminar keçirilib. Seminarda İnstitutun Kondensə olunmuş hal fizikası şöbəsinin aparıcı elmi işçisi Vidadi Bagıyev "Femtokimya və 4D-TOMOQRAFİYASI" mövzusunda məruzə ilə çıxış edib.***

Məruzəçi 4D-elektron tomoqrafiyasının yaranması və texniki şərtləri haqqında məlumat verərək, bu texnologiyanın femtosaniyə zaman miqyasında nano ölçülü obyektlərdə baş verən dəyişiklikləri üçölçülü, həcm (3D) və zamandan asılı olaraq müşahidə etmək, mikroaləmdə obyektlər və proseslər haqda 4D tomoqrafik film çəkmək imkanı olduğundan bəhs edib. Adıçəkilən istiqamətin perspektiv tətbiq sahələri kimi kimya, o cümlədən dinamik femtokimya - atom və molekul səviyyəsində kimyəvi reaksiyaların getməsini femtosaniyə miqyasında müşahidə və mənimsənilməsinin yolları göstərilib.

# Xalq yazıçısı Elçin BDU-da mühazirə oxudu

Martın 29-da Elm Gününə həsr olunmuş mühazirələr silsiləsindən "Əbədi müasirimiz - Nizami haqqında söz" mövzusunda onlayn mühazirə keçirilib. Azərbaycan Respublikasının xalq yazıçısı, nasir, dramaturq, tənqidçi, ədəbiyyatşünas Elçin Əfəndiyev BDU-nun, BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin professor-müəllim heyəti və tələbələrinə, "Gənc istedadlar" liseyinin şagirdlərinə onlayn mühazirə oxuyub.

Elçin Əfəndiyev mühazirədə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, ölməz əsərləri, humanist ideyaları ilə dünyanın ən tanınmış söz sənətkarlarının önündə dayanan Nizami Gəncəvinin həyat yolu və ya-



radıcılığı, Şərq və dünya ədəbiyyatının inkişafında rolu, əsərlərindəki fəlsəfi fikirlər, ideyalar, bəşəriyyətin bədii söz sənətinə "Xəmsə" adlı xəzinəni bəxş etməsi, onun bədii irsinin dünya ədəbiyyatının, təsviri sənətin və musiqinin inkişafına böyük təsiri, gənc nəslin təlim-tərbiyəsində Nizami yaradıcılığının əvəzsiz rolu və s. barədə söhbət açıb.

Daha sonra BDU-nun rektoru Elçin Babayev çıxış edərək Xalq yazıçısı Elçinə maraqlı mühazirəyə görə təşəkkür edib. BDU-da "Nizami Gəncəvi ili" çərçivəsində həyata keçiriləcək tədbirlər planı barədə məlumat verib. O, bu məqsədlə xüsusi komissiyanın yaradıldığını, silsilə elmi konfrans və simpoziumların, mühazirələrin, seminarların keçiriləcəyini, dahi şairin zəngin söz xəzinəsinə həsr olunmuş sərgilərin təşkil olunacağını söyləyib.

Tədbir maraqlı müzakirələrlə davam edib.

# BDU ilə Qətər Universiteti arasında əməkdaşlığa dair onlayn görüş

***Martın 11-də Bakı Dövlət Universiteti ilə Qətər Universiteti arasında onlayn görüş keçirilib.***

Görüşdə Azərbaycan Respublikasının Qətərdə fövqəladə və səlahiyyətli səfiri Rəşad İsmayılov, səfirliyin əməkdaşı İdris Hüseynzadə, Qətərin Azərbaycan Respublikasındakı səfiri Faisal bin Abdullah Hamad Abdullah Al-Hanzab, BDU-nun rektoru Elçin Babayev, Qətər Universitetinin prezidenti Həsən Raşid Əl-Dirhəmi, Qətər Universitetinin elmi tədqiqat, magistr və doktorant tələbələr üzrə vitse-prezidenti Mariam Al-Maadeed, tələbə işləri üzrə vitse-prezidenti Eiman Mustafavi, Beynəlxalq əlaqələr ofisinin direktoru Cesar Wazen, BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov iştirak ediblər.



Qətər Universiteti

Qonaqları salamlayan rektor Elçin Babayev qarşılıqlı əməkdaşlıq haqqında danışaraq görüşün gələcəkdə həm tələbə və professor-müəllim heyəti, həm də bütövlükdə, hər iki ali təhsil müəssisəsi arasında əməkdaşlığa təkan verəcəyini bildirib. BDU-nun beynəlxalq əlaqələrindən, dünyanın müxtəlif təhsil və elm ocaqları ilə birlikdə yerinə yetirilən proqramlar haqqında danışan E.Babayev Azərbaycanla Qətər arasında olan dostluq əlaqələrindən də söz açıb, qarşılıqlı mübadilələrin yüksək səviyyədə həyata keçiriləcəyindən əminliyini ifadə edib. BDU-da tələbələrin, doktorantların bilik və bacarıqlarını artırması üçün hər cür şərait yaradıldığını qeyd edərək, ümumiyyətlə ölkəmizdə son illər elm-təhsil sahəsində görülən işlərdən, nailiyyətlərdən də söz açıb. Şərqşünaslıq fakültəsinin ərəb dili ixtisasında yüksəkixtisaslı kadr potensialının hazırlandığına diqqət çəkərək, gələcəkdə Qətər Universiteti ilə bu sahədə əməkdaşlıq, ikili diplom, birgə elmi layihələrin həyata keçirilməsi perspektivlərindən bəhs edib.

Rəşad İsmayılov və Faisal bin Abdullah Hamad Abdullah Al-Hanzab iki ölkə arasında inkişaf etməkdə olan əlaqələrdən, həmçinin elm və təhsil sahəsində qarşılıqlı əməkdaşlığın perspektivlərindən danışıblar.

Qətər Universitetinin prezidenti Həsən Raşid Əl-Dirhəmi, Beynəlxalq əlaqələr ofisinin direktoru Cesar Wazen da öz növbələrində təmsil etdikləri universitetin nailiyyətlərindən danışıb və birgə layihələrin gerçəkləşdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıblar.

Görüşdə təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib, birgə fəaliyyətin genişləndirilməsinin, elmi tədqiqatların aparılmasının əhəmiyyəti qeyd olunub.

# "Türk xalqlarında Novruz adətləri" adlı konfrans

***Filologiya fakültəsinin Tələbə Elmi Cəmiyyəti nəzdində fəaliyyət göstərən "Türkoloji" dərnəyin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş "Türk xalqlarında Novruz adətləri" adlı beynəlxalq onlayn konfrans keçirilib.***

Tədbirə türkdilli dövlətlərin tanınmış türkoloq alimləri və gənc tədqiqatçıları qatılıb.

"Türkoloji" dərnəyin rəhbəri Zülfiyyə Ağayevanın moderatorluğu ilə keçirilən konfransı giriş sözü ilə açan Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov iştirakçıları Novruz bayramı münasibəti ilə təbrik edib, Azərbaycan xalqının bu günə qədər yaşatdığı zəngin Novruz adətlərindən danışıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın işğaldan azad edilmiş rayonlara bayram günlərində səfərindən və Şuşada, Cıdır düzündə bayram tonqalının alovlandırılmasından söz açan A.Fərəcov Novruzun türk xalqlarının həyatındakı yerinə toxunaraq konfransın mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Diskussiya şəklində davam edən konfransın sonunda məruzəçilərə BDU-nun Filologiya fakültəsinin dekanı adından sertifikatlar təqdim olunub.

# BDU-nun 5 tələbəsi təhsilini İsrailin Holon Texnologiya İnstitutunda davam etdirir

***Bakı Dövlət Universiteti və İsrailin Holon Texnologiya İnstitutu arasında ikili diplom layihəsi uğurla tətbiq edilir. BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin kompyuter elmləri ixtisası üzrə bakalavriat səviyyəsinin 3-cü kursunun 5 tələbəsi 2020/2021-ci tədris ilinin ikinci semestrindən etibarən təhsilə Holon Texnologiya İnstitutunda onlayn formatda davam edirlər.***

Tələbələrin Holon Texnologiya İnstitutunda tədrisə davam etmələri üçün fənlər və kreditlər hesablanmış, tədris planları müqayisə edilmiş, oxşar və fərqli fənlər müəyyənləşdirilmişdir.

İkili diplom layihəsinin əsas məqsədi kompyuter elmlərinin müasir nailiyyətlərinə yiyələnməyi bacaran, informasiya texnologiyaları sahəsində dərin biliklərə malik olan, kompyuter elmlərinin fundamental və xüsusi tətbiqi metodlarından istifadə etməyi bacaran, öz peşə fəaliyyətlərində praktik problemləri formalaşdırmaq və effektiv həll etmək imkanına malik olan elm, təhsil, sənaye və biznesin müxtəlif sahələri üçün yüksəkixtisaslı mütəxəssislər hazırlamaqdır.

# Erasmus+ mübadilə proqramı çərçivəsində ilk görüş

***Bakı Dövlət Universiteti ilə Berlin Texniki Universiteti arasında Erasmus+ mübadilə proqramı çərçivəsində ilk görüş keçirilib.***

Onlayn görüşdə "Sahilyanı ərazilərdə iqlim dəyişmələrinə adaptasiya tədbirləri üzrə məkan-zaman mühəndisliyi istiqamətində yeni tədris kurslarının yaradılması" ("New courses in geospatial engineering for climate change adaptation of coastal ecosystems") adlı layihə müzakirə olunub.

Görüşdə layihənin koordinatoru, BDU-nun Coğrafiya fakültəsinin müəllimi Aytən Məhərrəmova-İmanova sahil ekosistemlərinin ekoloji təhlükəsizliyini təmin etmək məqsədi ilə yeni texnologiyalardan istifadə edərək geoməkan texnologiyaları üzrə bakalavr, magistr və doktorantura kurrikulumlarının müasirləşdirilməsi mövzusunda, həmçinin layihənin perspektivləri barədə müzakirələrdə iştirak edib.

# "Kainatın yaranmasının müasir fiziki mənzərəsi"

***27 mart - Elm Gününə həsr olunmuş mühazirələr silsiləsindən "Kainatın yaranmasının müasir fiziki mənzərəsi" mövzusunda onlayn mühazirə keçirilib.***

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov keçirilən onlayn elmi seminarların, ustad dərslərin və mühazirələrin əhəmiyyətindən danışıb. BDU-nun elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin müdiri, professor Mais Süleymanov BDU-nun, Mingəçevir Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinə mühazirə oxuyub. Mühazirədə kainatın yaranması haqqında müasir fizikanın əsas nəzəriyyəsi olan "Böyük Partlayış" nəzəriyyəsindən bəhs olunub, bu nəzəriyyənin təcrübi təsdiqinə yönəldilmiş elmi tədqiqatların nəticələri müzakirə olunub. Xüsusi fikir Böyük Adron Kollayderindən (CERN Jenevrı, İsveçrə) alınmış nəticələrin müzakirəsinə yönəlib.

# BDU-nun şəhid məzunlarının əziz xatirəsinə

***Bakı Dövlət Universiteti və Missiya internet televiziyasının birgə layihəsi çərçivəsində BDU-nun bir qrup əməkdaş və tələbəsi Mexanika-riyaziyyat fakültəsinin 2020-ci il məzunu, 44 günlük Vətən müharibəsində rəşadət göstərərək şəhidlik zirvəsinə ucalmış Manaf Bəhmənlinin ailəsini ziyarət edib.*** Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Mexanika-riyaziyyat fakültəsinin dekan müavini Sərdar Əliyev, Tələbə Gənclər Təşkilatının sədri Nicat İsmayılov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayev və Missiya TV-nin çəkiliş qrupu iştirak ediblər.



Şəhid Manaf Bəhmənlinin anası oğlunun Vətən müharibəsində keçdiyi şərəfli yoldan, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında göstərdiyi fədakarlıqdan bəhs edib, şəhid valideyni kimi övladı ilə qürur duyduğunu bildirib. Qeyd olunub ki, Manaf Bəhmənli ölümündən sonra "Hərbi xidmətlərinə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Görüşdə şəhid Manaf Bəhmənlinin əziz xatirəsi yad edilib, barəsində xoş təəssüratlar söylənilib. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin rəşadətinin hər birimizə örnək olması, hər bir Azərbaycan vətəndaşının öz qəhrəmanları ilə qürur duyduğu dilə gətirilib.

Layihə çərçivəsində BDU-nun Vətən müharibəsində şəhid olmuş bütün tələbə və məzunlarının ailələri ziyarət olunacaqdır.

# "Şuşa mədəniyyət paytaxtıdır" adlı tədbir

***Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Şuşa mədəniyyət paytaxtıdır" adlı onlayn tədbir keçirilib.*** Tədbirin aparıcısı Ruslan Mustafayev tədbiri açıq elan edərək Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin beşiklərindən biri olduğunu bildirib. 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunmasından, həmin tarixin bayram günləri sırasına daxil edilməsindən və hər il ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcəyindən danışıb.

Sonra Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Şuşanın yetişdirdiyi sənətkarlar, ədəbiyyat nümayəndələri haqqında məlumat verib, Şuşada Vaqif poeziya günləri keçiriləcəyinə, "Xarı bülbül" festivalının bərpa olunanacağına diqqət çəkib.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov strateji əhəmiyyətə malik Şuşa şəhərinin memarlıq abidələrindən bəhs edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan etdiyini vurğulayıb.

Tələbə Gənclər Təşkilatının sədr müavini Ələkbər Həsənov Şuşa şəhərinin yaranması, erməni qəsbkarları tərəfindən işğalı, ordumuzun Şuşanı işğaldan azad etməsi uğrunda keçdiyi zəfər yolundan bəhs edib.

Tədbir Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Həsrət Emçiyevin çıxışı ilə yekunlaşıb.

# "Elmi tədqiqat və akademik yazı" mövzusunda təlim

Hüquq fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının, ABŞ-ın Nyu York ştatının, habelə İngiltərə və Uelsin vəkillər kollegiyasının üzvü Altay Mustafayevin iştirakı ilə "Elmi tədqiqat və akademik yazı" mövzusunda onlayn təlim keçirilib. Təlimdə Universitetin müəllimləri, tələbə, magistrant və doktorantlar iştirak edib.

Tədbiri giriş sözü ilə açan Hüquq fakültəsinin dekanı Əmir Əliyev qeyd edib ki, təlimin əsas məqsədi tədqiqat işinin seçilməsi, ədəbiyyatın toplanması, mənbələrin yığılması, araşdırma zamanı lazımi qeydlərin aparılması və digər məsələləri tələbələrə izah etməkdir.

"Elmi tədqiqat və akademik yazı" mövzusunda məruzə ilə çıxış edən A.Mustafayev yazıya başlamazdan əvvəlki mərhələ, bir-biri ilə əlaqəli olan ideyaların axtarılması, toplanması və bir araya gətirilməsi kimi məsələlərdən danışıb. Təlimçi giriş və nəticə hissələrinin yazılmasında rast gələnən çətinliklərdən, onların aradan qaldırılması metodlarından bəhs edib.

# "Narkomaniya - bəşəriyyətin ən böyük düşməni" mövzusunda tədbir

***Biologiya və Kimya fakültələri və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə "Narkomaniya - bəşəriyyətin ən böyük düşməni"*** mövzusunda tədbir keçirilib. Tədbirdə narkotik vasitələrin insan həyatına təsiri, ziyanları, yaratdığı xəstəliklərdən və bəşəriyyətə verdiyi fəsadlardan danışılıb. Biologiya fakültəsinin dekan müavini Musa Cabbarov çıxış edərək bu kimi maarifləndirici tədbirlərin önəmini vurğulayıb, narkomaniyaya qarşı mübarizədə bütövlükdə cəmiyyətin, dövlətin, xalqın, nəhayət, hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, bu cür təhlükəli təzahürlərə qarşı barışmaz mövqeyinə və əməli köməyinə böyük ehtiyac olduğuna diqqət çəkib.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov narkomaniya, onun dünyada yayılması, narkotik vasitələrin kimyəvi tərkibi, narkomaniya ilə mübarizə haqqında məlumatlar verib.

# "Beynəlxalq nəşriyyatların resurslarından istifadə və innovativ xidmətlər" mövzusunda tədbir

***Martın 9-da Universitetin Elmi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (AzKİK) çərçivəsində "Beynəlxalq nəşriyyatların resurslarından istifadə və innovativ xidmətlər" mövzusunda onlayn tədbir keçirilib.***

Ölkənin 30-dan çox ali təhsil müəssisəsinin kitabxana rəhbərləri və əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova 50 ilə yaxındır ki, Azərbaycan ali məktəb kitabxanaları üçün metodiki mərkəz statusunu daşıyan BDU Elmi Kitabxanasının universitet kitabxanaları ilə əməkdaşlıq və metodik fəaliyyətinin yeni müstəvidə qurulmasının vacibliyini vurğulayıb.

EİFL.net üzrə milli əlaqələndirici, EBSCO-nun Azərbaycan üzrə təmsilçisi Cəmilə Yusifova kitabxanaların beynəlxalq nəşriyyatların resurslarına abunəliyi işinin təşkili problemlərindən bəhs edərək, pandemiya dövründə onlayn innovativ xidmətlərdən daha geniş istifadə olunduğunu qeyd edib. ADA Universitetinin kitabxana sistemləri üzrə mühəndisi İltifat İbrahimov isə "Kitabxana informasiya sistemləri və müasir texnologiyalar" mövzusunda məruzə edib.

Sonda beynəlxalq nəşriyyatlarla əməkdaşlıq etmək, onların yerli təmsilçiləri ilə birgə tədbirlər keçirmək, açıq resurslara girişi təmin etmək məsələləri müzakirə edilib.

# Filologiya fakültəsinin tələbələri beynəlxalq yaradıcılıq müsabiqəsinin qalibi olublar

Filologiya fakültəsinin I kurs magistrantı Gülay Tahirli və II kurs tələbəsi Gülşən Adışova Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən keçirilmiş "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!" adlı beynəlxalq yaradıcılıq müsabiqəsində I yerə layiq görülüblər. Gülay Tahirli 18-28 yaşlı gənclər arasında şeir, Gülşən Adışova isə esse nominasiyası üzrə qalib olublar.

Qalibləri təbrik edir, təhsillərində və yaradıcılıqlarında uğurlar arzulayırıq!

# "İşğaldan azad edilmiş ərazilərin bərpası və böyük qayıdış"

***Coğrafiya, Geologiya və Ekologiya və torpaqşünaslıq fakültələrinin birgə təşkilatçılığı ilə "İşğaldan azad edilmiş ərazilərin bərpası və böyük qayıdış" mövzusunda onlayn tədbir keçirilib. Tədbirdə hər üç fakültənin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.***

Seminarı giriş sözü ilə açan Coğrafiya fakültəsinin dekanı Şəkər Məmmədova tədbirin əhəmiyyətindən danışaraq işğal nəticəsində Qarabağın məhv edilən təbii və təsərrüfat sahələri haqqından qısa məlumat verib.

Sonra Geologiya fakültəsinin professoru Nazim İmamverdiyev "İşğaldan azad edilmiş ərazilərin innovativ üsullarla geoloji quruluşunun öyrənilməsi, yeni faydalı qazıntıların perspektivliyinin qiymətləndirilməsi", Ekologiya və torpaqşünaslıq fakültəsinin dosenti Qismət Xanbabayev "İşğaldan azad edilmiş ərazilərin ekoloji problemlərinin tədris prosesində nəzərə alınması" və Coğrafiya fakültəsinin baş müəllimi, coğrafiya üzrə fəlsəfə doktoru Vüqar Dərgahov "Ağıllı şəhər və kənd layihələrinin ərazi təşkilində beynəlxalq təcrübə" mövzularında məruzə ilə çıxış ediblər.

Çıxışlarda işğaldan azad edilmiş hər bir rayonumuzun zəngin iqtisadi potensiala, həmçinin kənd təsərrüfatı baxımından böyük imkanlara malik olduğu qeyd edilib, yaxın gələcəkdə işğaldan azad edilmiş ərazilərdə tikinti-bərpa işlərinin həyata keçirilməsinin xüsusi əhəmiyyəti qeyd edilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# "Ulu tariximizin sorağı ilə: Azıx mağarası" mövzusunda mühazirə

***Martın 31-də Bakı Dövlət Universitetində "Ulu tariximizin sorağı ilə: Azıx mağarası" mövzusunda onlayn mühazirə oxunub. Tədbirdə BDU-nun və Universitetin Qazax filialının professor-müəllim heyəti və tələbələri iştirak ediblər.***

BDU-nun Arxeologiya və etnoqrafiya kafedrasının məsləhətçi professoru, tarix elmləri doktoru Qüdrət İsmayılzadə mövzu ilə bağlı məruzə edib. Məruzədə Azərbaycanın zəngin tarixi keçmişi, misilsiz abidələr diyarı olduğu, vətənimizin hər qarış torpağında ulu tariximizin bütün ardıcıl inkişaf mərhələlərini əhatə edən maddi-mədəniyyət nümunələrinə rast gəlməyin mümkün olduğu bildirilib. Qeyd edilib ki, abidələrin nadir nümunələri Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun azad etdiyi əzəli Azərbaycan torpaqları olan Qarabağ ərazisindədir. Nümunə üçün planetimizin daş dövrünə aid ən qədim mağara düşərgələri sayılan Azıx və Tağlar, eyni zamanda Şuşa mağara düşərgələrini göstərmək mümkündür.



Azıx mağara düşərgəsinin coğrafi mövqeyindən bəhs edən alim onun Qarabağ yaylasının cənub-şərq ətəklərini tutan Quruçay dərəsində, dəniz səviyyəsindən 9 metr yüksəklikdə yerləşdiyini, bu abidənin Qafqazın ən möhtəşəm karst sığınacağı sayıldığını qeyd edib. Mağaranın tədqiq məsələlərindən bəhs edən professor abidənin 1960-cı ildə Azərbaycanın tanınmış arxeoloqu Məmmədəli Hüseynov tərəfindən öyrənildiyini, aparılmış arxeoloji qazıntılar zamanı mağarada daş dövrünün bütün qədim ardıcıl mərhələlərinin üzə çıxarıldığını nəzərə çatdırıb. 1968-ci ildə aşkar edilmiş antropoloji tapıntı bütün dünya arxeologiyası üçün əlamətdar tarixi hadisə olub. Həmin tapıntını M.Hüseynov azıxantrop ("Azıx adamı") adlandırmışdır. 1971-ci ildə Məmmədəli Hüseynovun Şuşa şəhəri yaxınlığında aşkar etdiyi mağara düşərgəsi də Azərbaycan arxeologiyası üçün nadir sayılmış və Azərbaycanda daş dövrü arxeologiyası üçün əsas olmuşdur.

Mühazirə iştirakçıların suallarının cavablandırılması ilə başa çatıb.

# "Ümumdünya Su Resursları Günü" adlı tədbir keçirilib

***Geologiya fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşəbbüsü ilə "22 mart - Ümumdünya Su Resursları Günü"nə həsr olunmuş onlayn tədbir keçirilib.***

Tədbirdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, BDU THİK sədri Hacıbaba Mustafayev, Geologiya fakültəsinin tədris işləri üzrə dekan müavini Ruslan Şəmiyev, Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimləri Günay Hüseynova, Ələkbər Mirzəyev və fakültə tələbələri iştirak ediblər.

Martın 30-da keçirilən tədbiri giriş sözü ilə açan Geologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini İlqar Quliyev iştirakçıları salamlayıb, müasir dövrün qlobal problemi olan içməli su ehtiyatlarının mühafizəsinin vacib məsələ olduğuna diqqətə çəkib. Ölkəmizdə su resurslarından səmərəli istifadə haqqında 2020-ci il 23 iyul tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə ölkə başçısının nitqini xatırladıb. O, ölkə rəhbərinin çıxışına istinadən ölkədə genişmiqyaslı hidrogeoloji tədqiqatların aparılması, hidrogeoloji şəraitin dəqiq analizi, yeni perspektiv yeraltı su yataqlarının kəşfi və bu yataqların ehtiyatlarının yenidən qiymətləndirilməsinə və bu sahədə gələcəkdə də səmərəli fəaliyyətin qurulmasının vacibliyini vurğulayıb.



BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov və BDU THİK sədri Hacıbaba Mustafayevin çıxışlarında cəmiyyətdə sudan səmərəli istifadə haqqında maarifləndirmə işlərinin aparılması baxımından universitet və təşkilatlarla birgə genişmiqyaslı təbliğat işlərinin görülməsi haqqında təkliflər irəli sürülüb.

Geologiya fakültəsinin tədris işləri üzrə dekan müavini Ruslan Şəmiyev belə bir vəziyyətdə mövcud su ehtiyatlarından səmərəli istifadənin, suyun bərabər bölgüsünün, su mənbələrinin çirklənmədən etibarlı mühafizəsinin ciddi əhəmiyyət kəsb etdiyini bildirib.

Tədbirdə çıxış edən Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Ələkbər Mirzəyev 22 mart - Ümumdünya Su Resursları Gününün keçirilməsi haqqında ilk təklifin 1992-ci ilin iyununda Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş BMT-nin Ətraf Mühitin Mühafizəsi və İnkişafı Konfransında (UNCED) irəli sürüldüyünü, BMT-nin Baş Assambleyasının 1993-cü il 22 fevral tarixli qərarına əsasən isə qeyd olunmağa başlanıldığını qeyd edib. Ölkəmizdə əsas su itkilərinin torpaq məcrada tikilmiş suvarma kanalları və təsərrüfatdaxili suvarma şəbəkələrində baş verdiyini bildirib, su təchizatı qurğularında və məişətdə su itkilərinin qarşısı alınmalı, müasir texnologiya və suya qənaət edən avadanlıqlardan istifadə edilməli, içməli sudan texniki məqsədlər üçün istifadənin məhdudlaşdırılmasını qarşıda duran prioritet məsələlər kimi qeyd edib.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb, bu sahədə görülən işlər ətrafında fikir mübadiləsi aparılıb.

## BDU müəllimlərinin həmmüəllifi olduğu məqalə impakt faktorlu jurnalda

Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və kafedranın dosenti Elmina Qədirovanın həmmüəllif olduqları "Role of polyaromatic hydrocarbons in the pollution of aquatic ecosystems" ("Su ekosistemlərinin çirklənməsində poliaromatik karbohidrogenlərin rolu") məqaləsi impakt faktorlu (İF 6.356) "Science China Chemistry" jurnalında çap edilib.

Məqalədə poliaromatik karbohidrogenlərin su ekosisteminə təsirindən bəhs edilib. Tədqiqat zamanı toksiki təsirli 16 PAK təyin edilib. Analizlər 6890N qaz xromotoqrafiyası ilə təchiz edilmiş yüksək həssaslığa malik Agilent 5975 kütlə detektorunda aparılıb.

## Filologiya fakültəsində "Türk xalqlarında Novruz adətləri" adlı konfrans

***Filologiya fakültəsinin Tələbə Elmi Cəmiyyəti nəzdində fəaliyyət göstərən "Türkoloji" dərnəyin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş "Türk xalqlarında Novruz adətləri" adlı beynəlxalq onlayn konfrans keçirilib. Tədbirə türkdilli dövlətlərin tanınmış türkoloq alimləri və gənc tədqiqatçıları qatılıb.***

"Türkoloji" dərnəyin rəhbəri Zülfiyyə Ağayevanın moderatorluğu ilə keçirilən konfransı giriş sözü ilə açan Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov iştirakçıları Novruz bayramı münasibəti ilə təbrik edib, Azərbaycan xalqının bu günə qədər yaşatdığı zəngin Novruz adətlərindən danışıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın işğaldan azad edilmiş rayonlara bayram günlərində səfərindən və Şuşada, Cıdır düzündə bayram tonqalının alovlandırılmasından söz açan A.Fərəcov Novruzun türk xalqlarının həyatındakı yerinə toxunaraq konfransın mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Sonra söz məruzəçilərə verilib. Türkiyənin Hacəttəpə Universitetinin professoru Özkul Çobanoğlunun "Türk xalqlarının həyatında Novruz, onun tarixi və Ərgənəkon" adlı çıxışı dinlənildikdən sonra, BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti Məhəmməd Məmmədov Azərbaycanda, Türkiyənin Zonquldağ Bülent Ecevit Universitetinin müəllimi Tahir Aşirov Türkmənistanda, İstanbul Kültür Universitetinin müəllimi Şurubu Kayhan Qırğızıstanda, Əlişir Nəvai adına Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin müəllimi Nodirbek Jurakuziyev isə Özbəkistanda qeyd olunan Novruz adətləri haqqında məlumat verib, bu adətlərin tarixindən və regional özəlliklərindən, Novruzun türk dünyasında milli birlik və barış rəmzi olmasından danışıblar.

Diskussiya şəklində davam edən konfransın sonunda məruzəçilərə BDU-nun Filologiya fakültəsinin dekanı adından sertifikatlar təqdim olunub.

# QAN YADDAŞIMIZ -

**Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra yalnız Ulu Öndərimiz, xalqımızın xilaskarı Heydər Əliyevin qətiyyəti sayəsində 20 Yanvar faciəsi, Xocalı soyqırımı kimi 1918-ci ilin mart hadisələrinə də dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzaladı. Fərmanda həmin hadisələrə hüquqi-siyasi qiymət verildi, eyni zamanda həmin sənəddə 31 Mart tarixinin "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunması təsbit olundu.**




***Əsrlər boyu xalqımıza qarşı məkrli planlar quran, hər fürsətdə öz çirkin niyyətlərini həyata keçirməyə cəhd göstərən bədnam qonşumuz ötən əsrin əvvəllərində havadarlarının dəstəyi ilə Bakıda və digər şəhərlərimizdə qanlı cinayətlər törətdilər. Azərbaycan torpaqlarında və digər ərazilərdə "Böyük Ermənistan" qurmaq xülyası ilə yaşayan erməni cəlladları 1905-ci ilin əvvəllərindən başlayaraq xalqımıza qarşı planlı şəkildə soyqırımı həyata keçirdilər. 1905-ci ilin fevral ayında Bakıda başlayan qırğınlar Naxçıvan, Şuşa, Zəngəzur, İrəvan, Tiflis, Eçmiədzində, Cavanşir və Qazax qəzalarında silsilə şəklində davam etdirildi, qanlı hadisələr nəticəsində 10 mindən çox günahsız insan erməni terrorunun qurbanı oldu. Yüzlərlə kənd və qəsəbələrimiz dağıdıldı, yandırıldı.***

Hadisələrin təşkilində və gedişatında ermənilərə dəstək verən Çar Rusiyası imperiyanın yaxınlaşan süqutunun qarşısını almaq üçün tabeliyində olan xalqları üz-üzə qoymaqla öz ömrünü uzatmaq məqsədi güdürdü. Kölə xislətləri ilə ağalarına sadiqliklərini hər fürsətdə nümayiş etdirən ermənilər bu məsələdə də çarizmə mümkün dəstəyi verdilər. Xüsusilə bədnam, militarist "Daşnaksutyun" partiyası bu hadisələrdə fəal rol oynayırdı.

1917-ci ilin oktyabr çevrilişindən sonra ermənilər çirkin niyyətlərini həyata keçirmək üçün yeni imkanlar əldə etdilər, özlərini bu dəfə də bolşevik ideyalarının ən sadiq və ardıcıl dəstəkçiləri kimi qələmə verdilər. Erməni millətçisi Stepan Şaumyanın Bakı Sovetinin rəhbəri olması ermənilərin əl-qolunun daha da geniş açılmasına və öz çirkin niyyətlərini həyata keçirmək üçün mütəşəkkil formada təşkilatlanmalarına vəsilə oldu. Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunasının əsas məqsədlərindən biri Bakıda etnik təmizləmə siyasətini həyata keçirmək idi və bu məsələdə bolşevik Rusiyasının əsas tərəfdaşı rolunu mənfur ermənilər oynadılar. Həmin dövrdə Bakı Sovetinə tabe olan silahlı birləşmələr faktiki olaraq Erməni Milli Şurasının əmrlərini yerinə yetirirdi.

1905-1907-ci illərdə törətdikləri qanlı cinayətlərə görə heç bir cəza almayan, eləcə də Şaumyanın Bakı Sovetinin rəhbəri olmasından ruhlanan ermənilər 1918-ci ilin mart ayında xalqımıza qarşı miqyasına görə daha böyük və daha amansız soyqırımı törətdilər. Martın əvvəllərindən başlayan qanlı cinayətlər ayın 18-də Şamaxıda xüsusi amansızlıqla davam etdirildi. Birbaşa Leninin tapşırıqlarını yerinə yetirən, onun tərəfindən təlimatlandırılan quldur Stepan Şaumyanın rəhbərliyi ilə onun əvvəlcədən silahlandırdığı ermənilər Şamaxı qəzasında dəhşətli soyqırımı cinayəti aktını həyata keçirdilər. Qanlı cinayət nəticəsində Şamaxı şəhəri tamamilə talan edildi, şəhərdə böyük miqyaslı yanğınlar törədildi. Əhali arasında qorxu və vahimə yaratmaq üçün qətllər xüsusi amansızlıqla törədilir, uşaqlar, qadınlar və qocalar hədəf seçilir, insanlara amansız işgəncələr verilir, onlar diri-diri yandırılır, bədən üzvləri xüsusi qəddarlıqla kəsilib-doğranılırdı. Hadisələr zamanı məqsədli şəkildə dini abidələrə, məscidlərə daha çox ziyan vurulmuş, şəhərin 13 məhəllə məscidi, eləcə də məşhur Cümə məscidi yandırılmışdı. Şamaxı hadisələri zamanı qətlə yetirilənlərin sayı bəzi mənbələrdə 40 minə qədər göstərilir.

Onu da vurğulamaq lazımdır ki, ermənilər Şamaxıda soyqırımı cinayətlərini yalnız azərbaycanlılara deyil, orada yaşayan digər xalqların nümayəndələrinə qarşı da həyata keçirmişlər. Hadisələr zamanı Şamaxıda yaşayan yəhudilərin, almanların və digər xalqların nümayəndələrinin də erməni terrorunun qurbanı olması barədə tutarlı faktlar mövcuddur. Qanlı cinayətlər nəticəsində 3 mindən çox dağ yəhudisinin qətlə yetirilməsi barədə dünyanın müxtəlif ölkələrində yayımlanan nüfuzlu nəşrlərdə məlumatlar, faktlar dərc olunub. Bu faktın özü erməni şovinistlərinin yalnız azərbaycanlıların deyil, bütün bəşəriyyətin, insanlığın düşməni olmasını bir daha isbat edir.

Cəzasızlıqdan, eləcə də Bakı Kommunasından aldıqları hərtərəfli dəstəkdən ruhlanan erməni millətçiləri martın 30-31-də və aprelin əvvəllərində Bakı Sovetinə tabe olan silahlı terror dəstələrinin iştirakı ilə qanlı cinayətlərini Bakı, Şamaxı, Quba, Naxçıvan, Kürdəmir, Salyan, Lənkəran, İrəvan, Zəngəzurda, Cavanşir və Cəbrayıl qəzalarında daha böyük miqyasda və amansızlıqla davam etdirdilər. Təkcə Bakı şəhərində bir gün ərzində qətlə yetirilənlərin sayı 12 mindən çox olmuşdu. Ümumiyyətlə, mart hadisələri zamanı qətlə yetirilənlərin sayı 50-60 min ətrafındadır.

Qanlı hadisələr zamanı yalnız günahsız dinc insanlar hədəf seçilməmiş, eyni zamanda bir sıra tarixi abidələr, binalar da dağıdılmışdı. Həmin məşum günlərdə məşhur İsmailiyyə binası top atəşinə tutularaq dağıdılmış, Cümə və Təzəpir məscidlərinin minarələri ağır zədə almış, "Kaspi" mətbəəsinin binası, "Açıq söz" qəzetinin redaksiyası yandırılmışdı.

Ermənilərin Bakıda və digər ərazilərimizdə törətdikləri vəhşiliklər Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun Azərbaycana gəlişinə qədər davam etmişdir. Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi xalqımızda böyük ruh yüksəkliyi və mübarizə əzmi yaratmış, Xalq Cümhuriyyətinin silahlı qüvvələri Qafqaz İslam ordusunun və xalqımızın dəstəyi ilə ermənilərə və onların havadarlarına müqavimət göstərmiş, Bakını və digər şəhərləri işğalçı-terrorçu birləşmələrdən təmizləmişlər. Xalq Cümhuriyyəti hökumətinin Gəncədən Bakıya köçürülməsi xalqımızın sabaha olan inamını daha da artırmışdır. Bakının və digər şəhərlərin erməni-bolşevik işğalından azad edilməsi zamanı Azərbaycan ordusunun əsgər və zabitləri ilə yanaşı Qafqaz İslam Ordusunun min nəfərdən çox əsgər və zabiti də şəhid olmuşdur. Qədirbilən xalqımız hər il mart soyqırımının qurbanları ilə yanaşı Qafqaz İslam Ordusunun şəhid əsgər və zabitlərini də eyni doğmalıqla anır, ruhlarına dualar oxuyur.

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra mart hadisələrini araşdırmaq məqsədilə iyul ayının 15-də Fövqəladə İstintaq Komissiyası yaradıldı. Törədilmiş qanlı cinayətlər Komissiya tərəfindən ətraflı şəkildə araşdırıldı, həmin hadisələr xalqımıza qarşı xüsusi amansızlıqla həyata keçirilən soyqırımı kimi qiymətləndirildi, günahkarların müəyyən edilib cəzalandırılması üçün əməli addımlar atıldı. Eyni zamanda 1919-cu il və 1920-ci illərdə 31 mart ümummilli matəm günü kimi dövlət səviyyəsində qeyd edildi. Təəssüflər olsun ki, 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin devrilməsi ilə bütün digər məsələlər kimi mart hadisələrinin təhqiqatı da yarımçıq qaldı. Milli hökumətin devrilməsindən ruhlanan ermənilər qanlı cinayətlərini davam etdirdilər. 1920-ci ilin may ayından 1921-ci ilin noyabrına qədər minlərlə soydaşımız qətlə yetirildi.

Erməni millətçiləri və onların havadarları xalqımıza qarşı etnik təmizləmə və soyqırımı siyasətini sovet dövründə də hər fürsətdə davam etdirdilər. 30-cu illərdə repressiyalar adı altında minlərlə soydaşımız soyqırıma məruz qaldı. 1948-1953-cü illərdə Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan adlanan tarixi ərazilərimizdən 150 mindən çox soydaşımız deportasiya edildi, həmin hadisələr və onun törətdiyi fəsadlar nəticəsində minlərlə azərbaycanlı həyatını itirdi. 1970-ci illərdə də ermənilər məkrli niyyətlərini reallaşdırmaq üçün müəyyən addımlar atmağa cəhd göstərdilər. Xüsusilə, 1977-ci ildə SSRİ Konstitusiyası hazırlanarkən Azərbaycanın müəyyən ərazilərini Ermənistan sərhədlərinə daxil etmək məqsədilə Moskvadakı havadarlarına üz tutdular. Lakin həmin dövrdə Azərbaycana rəhbərlik edən Ulu Öndərimiz Heydər Əliyevin qətiyyəti sayəsində mənfur ermənilərin çirkin niyyətlərinin qarşısı alındı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2013-cü il sentyabrın 18-də mart soyqırımı qurbanlarının xatirəsini əbədiləşdimək məqsədilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışındakı nitqində bu barədə demişdir: "1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə müraciətlər etmişlər. Hətta rəsmi səviyyədə müraciətlər etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Ondan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlamışdır. O vaxt da əlbəttə ki, ermənilərin təxribat etmək üçün heç bir imkanları olmamışdır. 1987-ci ilin noyabrında – Ulu Öndər Heydər Əliyev vəzifədən gedəndən iki həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı prosesi başladı. Təxribatlar törədildi, sovet və dünya mətbuatında bu məsələ ilə bağlı yanlış və təhrif edilmiş rəy yaradıldı".

Ulu Öndərimizin Moskvada siyasi hakimiyyətdən getməsindən fürsət kimi istifadə edən ermənilər 1988-ci ildə Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarından sonuncu soydaşımızı da deportasiya etdilər, yüz minlərlə azərbaycanlı didərgin həyatı yaşamağa məhkum oldu. Bununla da kifayətlənməyən erməni vandalları və onların havadarları XX əsrin əvvəllərində olduğu kimi əsrin sonlarında da soyqırımı cinayətlərini davam etdirdilər, tarixin yaddaşına 20 Yanvar faciəsi, Xocalı soyqırımı kimi qara səhifələr yazdılar. Daha sonra isə cənnət Qarabağımızı və ətraf rayonları işğal etdilər.

Onu da vurğulamaq lazımdır ki, 70 illik sovet hakimiyyəti illərində mart hadisələrinin üzərindən sükutla keçilmiş, bu qanlı cinayət hər vəchlə ört-basdır edilmişdir. Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra yalnız Ulu Öndərimiz, xalqımızın xilaskarı Heydər Əliyevin qətiyyəti sayəsində 20 Yanvar faciəsi, Xocalı soyqırımı kimi 1918-ci ilin mart hadisələrinə də dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzaladı. Fərmanda həmin hadisələrə hüquqi-siyasi qiymət verildi, eyni zamanda həmin sənəddə 31 Mart tarixinin "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunması təsbit olundu. Həmin tarixdən etibarən bu hadisə hər il soydaşlarımız tərəfindən ölkədə və xaricdə müxtəlif tədbirlər, aksiyalar şəklində qeyd edilir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün əməli addımlar atılır. Ulu Öndərimiz mart hadisələri ilə bağlı Azərbaycan xalqına etdiyi tarixi müraciətində deyirdi: "Müstəqillik dövründə qazandığımız mühüm nailiyyətlərdən biri tariximizin uzun illər gizli saxlanılan, saxtalaşdırılan və təhrif edilən dövr və hadisələrinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etməyimizdir. Belə hadisələrdən biri də dövlətimiz tərəfindən artıq öz siyasi və hüquqi qiymətini almış və bu gün ildönümünü qeyd etdiyimiz azərbaycanlıların soyqırımı günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən geniş miqyaslı aksiyaları ürək ağrısı ilə yad edirik".

# MART SOYQIRIMI

Onu da qeyd etmək lazımdır ki, bu tarixi Fərmandan sonra mart hadisələrinin elmi-tədqiqat işlərinin mövzusu kimi araşdırılması da geniş vüsət almışdır ki, bu da tarixi həqiqətlərin arxiv və fakt materialları, o cümlədən müxtəlif ölkələrin etibarlı mənbələrində saxlanılan tarixi sənədlər əsasında araşdırılması və əsl gerçəkliklərin üzə çıxarılması baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Ölkə başçısı İlham Əliyev mart hadisələrinin tanıdılması baxımından hər bir soydaşımızın üzərinə böyük məsuliyyət düşdüyünü çıxışlarında vurğulamışdır: “Bu işdə Azərbaycan vətəndaşlarının, ictimaiyyətin, xarici ölkələrdəki azərbaycanlı icmalarının üzərinə böyük məsuliyyət düşür. Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi bu məsələdə də Ulu Öndərimizin siyasətini layaqətlə davam etdirir. 2018-ci il yanvar ayının 18-də ölkə başçısı tərəfindən “1918-ci il Azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncam imzalanmışdır. Sənəddə hadisələrin tarixinə nəzər salan ölkə başçısı qeyd edir: “Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilmişdir”. Onu da qeyd etmək lazımdır ki, ölkə başçısının 18 yanvar 2018-ci il tarixli Sərəncamına uyğun olaraq Azərbaycanda və xaricdə 1918-ci il mart soyqırımının yüzüncü ildönümünə həsr olunmuş bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən Azərbaycan Respublikasının Milli Məclisinin soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclası keçirilmişdir.

Xüsusilə vurğulamaq lazımdır ki, mart hadisələrinin dünyaya çatdırılması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən də ardıcıl olaraq mühüm işlər görülür. 2007-ci il aprelin 1-də Qubada qazıntı işləri aparılarkən aşkar edilmiş kütləvi məzarlıqda Mehriban xanımın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə 2011-ci ildən “Soyqırım Memorial Kompleksi”nin tikintisinə başlanılmış, 2013-cü il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə Quba Soyqırımı Memorial Kompleksinin açılışı olmuşdur. Quba Soyqırımı Memorial Kompleksinin istifadəyə verilməsi mart hadisələrinin dünyaya çatdırılması baxımından olduqca böyük əhəmiyyətə malikdir. Memorial Kompleks soydaşlarımızla yanaşı xarici ölkə vətəndaşlarının, ölkəmizdə səfərdə olan rəsmi qonaqların üz tutduqları bir məkandır.

Bu il qanlı mart hadisələrindən 103 il ötür. İlk dəfədir ki, Azərbaycan dövləti və xalqımız bu hadisələrin ildönümünü ürək ağrısı ilə yanaşı, qalib dövlət və qalib xalq kimi qeyd edir. 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatlarına cavab olaraq Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə başlayan, 44 gün davam edən və parlaq qələbə ilə başa çatan Vətən Müharibəsindəki zəfərimiz həm də mart soyqırımını törədənlərin üzərində tarixi qalibiyyətimizdir.

103 ildən sonra ilk dəfədir ki, Müzəffər Ali Baş Komandanımızın, qəhrəman şəhid və qazilərimizin, xalq-iqtidar birliyinin sayəsində bütün şəhidlərimiz kimi mart soyqırımı qurbanlarının da ruhları şaddır. Qüdrətli Azərbaycan dövləti 44 günlük Vətən Müharibəsində düşmənə elə bir dərs verdi ki, mənfur düşmən bundan sonra nəinki xalqımıza qarşı hansısa soyqırımı cinayəti törətmək üçün özündə güc tapacaq, əksinə dövlət başçımızın qeyd etdiyi kimi bir daha bizim tərəfə baxmağa belə cəsarət etməyəcək!

*Elçin Babayev*
*Bakı Dövlət Universitetinin rektoru*

*azərtac.az*

# “1918-ci il mart soyqırımının tarixi, siyasi və hüquqi müstəvidə təhlili" mövzusunda dəyirmi masa




***Bakı Dövlət Universitetində 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı “1918-ci il mart soyqırımının tarixi, siyasi və hüquqi müstəvidə təhlili" mövzusunda onlayn dəyirmi masa keçirilib. Tədbir soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.***

BDU-nun rektoru Elçin Babayev çıxış edərək ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin müxtəlif dövrlərdə həyata keçirildiyi, bunun kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunduğunu qeyd edib. E.Babayev Azərbaycanlılara qarşı törədilmiş soyqırımına Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə əsl hüquqi və siyasi qiymətin verildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, Azərbaycan dövləti və xalqı bu hadisələrin ildönümünü ürək ağrısı ilə yanaşı, qalib dövlət və qalib xalq kimi qeyd edir. 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatlarına cavab olaraq başlayan və Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı parlaq Qələbə, Vətən müharibəsindəki zəfərimiz həm də Mart soyqırımını törədənlərin üzərində tarixi qalibiyyətimizdir.

Daha sonra Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Quba Soyqırımı Memorialı Kompleksinin direktor müavini Mehriban Əliyeva çıxış edərək Mart soyqırımı, Quba Soyqırımı Memorial Kompleksi haqqında geniş məlumat vermişlər.

Dəyirmi masada Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri, professor Anar İsgəndərov “1918-ci il mart soyqırımı Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində”, BDU-nun Hüquq fakültəsinin dekanı Əmir Əliyev “Törədilən müharibə cinayətlərinə görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti”, BDU-nun Hüquq klinikasının rəhbəri Turqay Hüseynovun “Soyqırımı cinayətlərinə görə beynəlxalq hüquqi məsuliyyət” mövzularında məruzə etmişlər.

# BDU-da 31 Mart Soyqırımı ilə bağlı silsilə tədbirlər keçirilib

30 mart 2021-ci il tarixində Tarix və Coğrafiya fakültələrinin birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş onlayn tədbir keçirilib. Tarix fakültəsinin dekan müavini Bəxtiyar Nəbiyev mart soyqırımının Azərbaycan xalqının tarixində ən qanlı faciələrdən biri olduğunu qeyd edərək 1918-ci il mart hadisələrinin mahiyyəti və nəticələri haqqında danışıb.

Tədbirdə Azərbaycan Respublikasının Milli Məclisinin üzvü, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov "1918-ci il mart soyqırımı Azərbaycan tarixşünaslığında" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi Azərbaycan tarixşünaslığında 1918-ci il mart soyqırımı mövzusunun tədqiqi, hadisələrin Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında təhlili, mart soyqırımını doğuran səbəblər, faciəli hadisələrin gedişi və ağır nəticələri, 44 günlük Vətən müharibəsində əldə olunan şanlı qələbə ilə bütün soyqırım qurbanlarının qisasının alınması və digər aktual məsələlərdən bəhs edib.

Daha sonra Tarix fakültəsinin dekanı vəzifəsini icra edən İbrahim Zeynalov, Coğrafiya fakültəsinin dekanı Şəkər Məmmədova, Coğrafiya fakültəsinin Xarici ölkələrin iqtisadi turizm və siyasi coğrafiyası kafedrasının müdiri Həbibə Soltanova, Tarix fakültəsi Tələbə Həmkarlar İttifaqı Təşkilatının sədri Əli Babazadənin 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş çıxışları dinlənilib.

***

***Filologiya fakültəsində keçirilən tədbirdə*** dekan müavini Anar Fərəcov çıxış edərək illər boyu davam edən erməni vandalizmi, XX əsrin əvvəllərində törədilən mart soyqırımı, soyqırıma dövlət tərəfindən verilən diqqətdən bəhs edib.

Tədbirdə fakültənin I kurs tələbələri Rəhiməxanım Əlipənahova, Nigar Xanəliyeva, Günel Əliyeva və fakültənin THİK sədri Sezər Məmmədli mart soyqırımı, həmin dövrün ziddiyyətli ictimai-siyasi vəziyyəti, geniş vüsət almış erməni qəsbkarlığı haqqında ətraflı məlumat verib.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov mart soyqırımı ilə bağlı məlumat verərək bu kimi tədbirlərin mütəmadi olaraq keçirilməsi və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin fəallığının vacibliyini vurğulayıb.

***

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində*** keçirilən tədbirdə tariximizi tanıtma yolunda tələbə-gənclərin üzərinə düşən vəzifələrdən bəhs olunub.

Tədbirdə Tarix fakültəsinin dosenti Əlmdar Şahverdiyev çıxış edərək Bakı Soveti və erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın barəsində tələbələrə məlumat verib. Eyni zamanda, rəsmi mənbələrə əsasən soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlının qətlə yetirildiyini, on minlərlə insanın itkin düşdüyünü vurğulayıb. Sonra Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi İbrahim Özsoyun 31 mart soyqırımı haqqında çıxışı dinlənilib.

# 31 mart insan və insanlığın soyqırımı!

***Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəklədirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.***

Sovet hakimiyyəti dövründə təxminən 70 il xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı və nəhayət, həqiqət anı yetişdi. 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, şəhər və kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi. Bakıda təkcə bir həftə ərzində 12 mindən çox insan, əksəriyyətini dinc sakinlər təşkil edən və əsas etibarilə müsəlman əhali vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdi. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər…"

Həmin dəhşətli günlərin şahidi olmuş alman A.Y.Kluqe qeyd edirdi ki, ermənilər müsəlman məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər.

Tarix 74 il sonra yenidən təkrarlandı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin zaman-zaman törətdikləri qanlı qırğınların davamı olan daha bir dəhşətli soyqırımı baş verdi. Hücum zamanı şəhərdəki 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürüldü, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralandı, 1275 nəfər girov götürüldü və insanı alçaldan işgəncələrə məruz qaldı. 1918 və 1992-ci ildə insanlığa qarşı baş vermiş faciələrin qisası isə 2020-ci ildə Vətən Müharibəsində alındı.

***Nigar İmanova,***
*Jurnalistika fakültəsinin*
*I kurs tələbəsi*

# Jurnalistika fakültəsi ilə AİJA arasında əlaqələr genişlənir

***Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) nümayəndə heyəti martın 5-də Jurnalistika fakültəsinin qonağı olub, fakültə rəhbərliyi ilə görüşdə bir sıra məsələlər müzakirə edilib.*** Görüşdə idman jurnalistlərinin ixtisaslarının təkmilləşdirilməsinə davamlı olaraq mümkün töhfələr vermək məqsədilə Jurnalistika fakültəsi ilə AİJA arasında əlaqələrin genişləndirilməsi və səylərin birləşdirilməsi qərara alınıb.

Dünyanın ən nüfuzlu idman jurnalistləri təşkilatı - Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AİPS) rəsmi saytında Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının BDU-nun Jurnalistika fakültəsi ilə əməkdaşlığına xüsusi yer ayırıb. Görüşdə qonaqlar fakültənin maddi-texniki bazası ilə yaxından tanış olub, idman jurnalistlərinin ixtisaslarının təkmilləşdirilməsinə davamlı olaraq töhfələr vermək məqsədilə Jurnalistika fakültəsi ilə Azərbaycan İdman Jurnalistləri Assosiasiyası arasında qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə edilib.

# İstanbul Universitetinin doktorantı BDU-da mühazirə oxuyub

***Türkiyə Cümhuriyyətinin İstanbul Universitetinin doktorantı Fazil Qasımov Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələrinə "Qafqaz Albaniyasının Qarabağdakı dini-mədəni mirası" mövzusunda onlayn mühazirə oxuyub.*** Fazil Qasımov öncə Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun qazandığı parlaq qələbə nəticəsində Qarabağdakı dini-mədəni abidələrimizin əsl sahiblərinə qaytarıldığını vurğulayıb. Qarabağdakı alban abidələrinin saxtalaşdırılmasında əsas rolu erməni qriqorian kilsəsinin oynadığını bildirib. Fazil Qasımov mühazirəsində etibarlı və tərəfsiz mənbələrə, tarixi faktlara, sənəd və arxiv materiallarına istinad edərək fikirlərini əsaslandırıb.

İstanbul Universitetinin doktorantı mühazirəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci 25 noyabr tarixində xalqa müraciətində ermənilərin Dağlıq Qarabağda alban dini mirasını erməniləşdirməsi barədə söylədiyi fikirlərindən gətirdiyi - "Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik." - sitatı ilə bitirib.

Mühazirə tələbələr tərəfindən maraqla dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# "Media Könüllüləri - 145" layihəsi çərçivəsində növbəti təlimlər



***Azərbaycanda Türkiyənin tanınmış yeni media mütəxəssisləri, Nişantaşı Universitenin müəllimləri onlayn təlimlər keçirir. Təlimlərə 20 dövlət təşkilatının, 20 media qurumunun sosial media menecerləri, eyni zamanda Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin tələbələri də iştirak edir.*** Təlimlərin məqsədi Azərbaycanda bu sahədə çalışan menecerlərin, həmçinin BDU-nun Jurnlistika fakültəsinin tələbələrinin praktiki biliklərinin artırılmasına dəstək olmaqdır. Nişantaşı Universitenin müəllimləri Özlem Tuğçe Keleş "Yeni media və rəqəmsal media planlaması", Zeliha Ocak "Yeni media və jurnalistikanın inkişafı", Yelda Şenkal isə "İctimaiyyətlə əlaqələr və media" mövzularında seminar verirlər. Təlimlər martın 12-dək davam edəcək.

Təlimdə iştirak edənlərə Nişantaşı Universitetinin və Global Journalism Council-in sertifikatları veriləcək.

Qeyd edək ki, təlimlər Parlament Jurnalistlər Birliyinin "Media Könüllüləri - 145" layihəsi çərçivəsində BDU-nun Jurnalistika fakültəsi ilə birgə həyata keçirilir.

Layihə çərçivəsində Nişantaşı Universitetinin müəllimləri bundan öncə də azərbaycanlı tələbələr üçün televiziya jurnalistikası ilə bağlı təlimlər keçib. Məqsəd Azərbaycanın gələcək jurnalistlərinin dünyaya çıxışını təmin etmək, bilik və bacarıqlarını artırmaqdır. Bundan sonra ayrı-ayrı dillər və sahələr üzrə təlimlər davam etdiriləcək.

# "Birləşmiş Millətlər Təşkilatı: yaranması, prinsipləri, iş mexanizmi" adlı elmi-praktiki tədbir keçirilib

***Bakı Dövlət Universitetinin Hüquq fakültəsində martın 3-də Tələbə Gənclər Təşkilatçılığı ilə "Birləşmiş Millətlər Təşkilatı: yaranması, prinsipləri, iş mexanizmi" adlı onlayn elmi-praktiki tədbir keçirilib.***

Hüquq fakültəsinin dekan müavini Aytəkin İbrahimova tədbirin keçirilməsinin əhəmiyyətindən danışıb, Birləşmiş Millətlər Təşkilatının (BMT) yaranma tarixi haqqında məlumat verib, Azərbaycan-BMT münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsindən bəhs edərək ölkəmizin dünyanın ən mötəbər beynəlxalq qurumunun ali kürsüsündən xalqımızın haqq səsini ucadan səsləndirməyə nail olduğunu vurğulayıb.

Hüquq klinikasının rəhbəri, hüquq üzrə elmlər doktoru Turqay Hüseynov Birləşmiş Millətlər Təşkilatının məqsədləri, prinsipləri, əsas qurumları haqqında iştirakçılara məlumat verib, Azərbaycanın BMT-nin əsas orqanları, ixtisaslaşmış və digər qurumları ilə yaxından əməkdaşlıq etdiyini, BMT-nin seçkili orqanlarında iştirak etməklə Azərbaycanın BMT Nizamnaməsinin məqsəd və prinsiplərinin yerinə yetirilməsinə öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Daha sonra fakültənin tələbələri Vahid Alıyev "BMT-nin sələfi - Millətlər Cəmiyyəti və onun uğursuzluğu", Tural Həsənov "BMT-nin yaradılması səbəbləri", Səyad Ələkbərov "BMT-nin iş mexanizmi və prinsipləri", Siyavuş Bağırov "BMT Soyuq Müharibə dövründə və hal-hazırda tarazlaşdırıcı qurum kimi", Rüstəm Əzimzadə "BMT-nin nəzdində ixtisaslaşmış təşkilatlar" və Ləman Alməmmədova "BMT və Azərbaycan əlaqələri" mövzularında çıxış ediblər.

# Əldə edilmiş yeni faktlar 1918-ci il soyqırımının coğrafiyasının daha geniş olduğunu təsdiqləyir

***Son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, soyqırımı və faciələrlə dolu səhifələr də yazılıb. Zaman-zaman mənfur qonşularımız tərəfindən tarixi torpaqlarımızda erməni dövləti qurmaq məqsədilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı kütləvi qırğınlar törədilib.***

Ermənilərin fasilələrlə, lakin düşünülmüş və planlı şəkildə davam etdirdikləri soyqırımı siyasəti nəticəsində minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, onların evləri yandırılıb, əmlakları qarət olunub. Bu dəhşətli hadisələrdən biri də 1918-ci ilin mart-aprel aylarında yaşanıb.

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin hakimiyyəti dövründə Azərbaycanda güclənməkdə olan milli dirçəliş prosesi, "Müsavat" partiyasının durmadan artan nüfuzu bolşevik-daşnak qruplarını daha da yaxınlaşdırdı. Bolşeviklərin yerli əhali arasında heç bir nüfuzu, sosial dayağı yox idi. Bunu 1917-ci ilin oktyabrında Bakı Sovetinə keçirilən seçkilərin nəticələri də aydın göstərirdi. Seçkilərdə cüzi səs qazanan bolşeviklər "Müsavat" partiyasına ciddi şəkildə uduzmuşdu. "Müsavat"ın Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamlı mübarizəsi bolşevikləri ciddi narahat edirdi. Elə buna görə də S.Şaumyan Bakıda azərbaycanlılara qarşı milli qırğın törədərək, xalqın milli azadlıq, qurtuluş hərəkatını beşikdə ikən boğmaq, "Müsavat" partiyasının sosial bazasını zəiflətmək, müsəlmanlara "dərs vermək" istəyirdi. Bakının türk-müsəlman əhalisinə qarşı soyqırımına ciddi hazırlaşan S.Şaumyan bolşevik rəhbərliyindən Qafqaz Qırmızı ordusunun təşkili üçün təcili surətdə on milyon rubl göndərilməsini xahiş edirdi. Bolşeviklərin S.Şaumyana göndərdikləri ərzaq eşelonları bu dövrdə Şimali Qafqazda yaranmış Terek-Dağıstan müsəlman hökumətinin maneçilik törətməsi nəticəsində Bakıya yetişməsə də, ermənilər Moskvadan böyük mənəvi dəstək aldılar. 1917-ci il dekabrın 29-da Lenin Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsinə dair sənəd imzaladı. Bu sənəd daşnak-bolşevik ittifaqını daha da gücləndirdi.



Bakıda törədilən 1918-ci ilin mart soyqırımında "Daşnaksutyun" bolşeviklərin zərbə qüvvəsini təşkil etdi. Digər tərəfdən, Birinci Dünya müharibəsi cəbhələrindən geri çəkilən erməni əsgər və zabitləri S.Şaumyanın təşkilatçılığı ilə Bakıda cəmləşdirildi. Sonradan 1918-ci il aprelin 19-da Bakı Sovetinin yığıncağında S.Şaumyan etiraf etmişdi ki, Bakının milli tərkibi onu çox qorxudurmuş və o, erməni-daşnak alaylarının köməyindən heç cür imtina edə bilməzdi. Həqiqətən də Bakıda azərbaycanlılara qarşı törədilən mart soyqırımının əsas təşkilatçısı və icraçısı V.Leninin Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi S.Şaumyan idi. Onun təşkil etdiyi Qırmızı ordunun tərkibi də ermənilərdən ibarət olub.

Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir. Təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayına gəlincə, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3 min 632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8 min 27 azərbaycanlı qətlə yetirilib. Onlardan 4 min 190 nəfəri kişi, 2 min 560 nəfəri qadın, 1277-si isə uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü bildirilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kənddən 86-da əhalinin erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya öz işini dayandırdığından digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

Ermənilər soyqırımı siyasətini tarixən tək insan resurslarını məhv etmək üzərində həyata keçirmir, Azərbaycan xalqının milli təsisatlarını, milli mətbuat orqanlarını sıradan çıxarıb, yararsız hala salmaq və bununla da törətdikləri qanlı olayların tarixdə yaşamamasına nail olmaq planları əsasında qururdu. 1918-ci il martın 31-dən aprelin 2-dək Bakı, Şamaxı, İrəvan, Quba, Lənkəran, Astara, Salyan, Neftçala və digər bölgələrdə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri kütləvi soyqırımı zamanı təkcə on minlərlə insan qətlə yetirilmədi, milli mətbu orqanlarımız, mətbəələr, konkret jurnalistlər də hədəfə alındı. "Açıq söz", "Kaspi" redaksiyaları yandırıldı. Almaniyadan gətirilən çap avadanlıqları ilə təchiz olunan Orucov qardaşlarının elektrik mətbəəsi dağıdıldı. "Kaspi" mətbəəsində yenicə çap olunan 5 min nüsxə "Qurani-Kərim" kitabı odda qalandı.

"Ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanına əsasən 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan olundu. Qeyd edək ki, bu sənədin ermənilər və onların tarixi havadarlarının yurdumuzun və yurddaşlarımızın başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında rolu böyük və əhəmiyyətlidir. Fərmanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı ilə bağlı proqram tezisləri öz əksini tapıb. Sənəd, eyni zamanda, ermənilərin türk dünyasına qarşı yönəlmiş düşmənçilik hərəkətlərinin, cinayətlərinin, "böyük Ermənistan" yaratmaq kimi boş və cəfəng ideyalarının tədqiqatını da zəruri edib. Yəni, soyqırımının birinci növbədə milli düşmənçilik zəminində türklərə, daha sonra türk dünyasının tərkib hissəsi olan azərbaycanlılara qarşı yönəldilməsi mərhələ-mərhələ araşdırılmalı, türk-Azərbaycan torpaqları hesabına "böyük Ermənistan" yaratmaq ideyalarının ermənilərin beyninə yeridilməsinin səbəbi və şəraiti, öz xeyirlərinə tarixi saxtalaşdırmaları xalqımıza, dünya ictimaiyyətinə çatdırılmalı, onların bu iyrənc arzu və istəkləri açıqlanmalıdır. Ümummilli lider Heydər Əliyevin tarixi Fərmanından ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı müvafiq Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən geniş qeyd olunub. Erməni-bolşevik silahlı dəstələrinin 103 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə bu gün də kütləvi informasiya vasitələrində məqalələr dərc edilir.

***İbrahim Zeynalov,***
*Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru*

*azərtac.az*

# "Vətən müharibəsi dövründə medianın fəaliyyətinin təhlili" layihəsi yekunlaşmaq üzrədir

Bakı Dövlət Universitetində Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətini təhlil edən, müvafiq analitik tədqiqatlar aparan layihə öz işini yekunlaşdırmaq üzrədir. Layihə çərçivəsində 44 gün davam edən və ordumuzun şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsi dövründə informasiya müharibəsi, yerli və xarici mediada haqq savaşımızın əksi təhlil olunub.



Layihənin İşçi qrupu 5 istiqamət üzrə fəaliyyət göstərərək, Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələri; Vətən müharibəsi beynəlxalq mediada; Vətən müharibəsi ölkə mediasında; müharibə dövründə Ermənistan mediası; Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışlarının təhlili aparılıb.

İşçi qrupuna BDU Jurnalistika fakültəsinin tanınmış alimləri ilə yanaşı, ölkənin bir sıra nüfuzlu media mütəxəssisləri, beynəlxalq jurnalistika tədqiqatçıları, habelə gənc araşdırmaçılar, doktorant və magistrantlar daxil edilib. Aparılan araşdırmalar əsasında geniş hesabatlar hazırlanmışdır və yaxın müddətdə ictimaiyyətə təqdim olunacaqdır. Bundan başqa, İşçi qrup Vətən müharibəsində obyektiv mövqe nümayiş etdirən, Azərbaycanın haqlı mövqeyini dəstəkləyən xarici media qurumlarına, jurnalist, siyasətçi və politoloqlara təşəkkür məktubları ünvanlayıb.

Əlavə edək ki, analitik hesabat hazırlanarkən jurnalistikanın prinsiplərinə, beynəlxalq jurnalistika təşkilatlarının təcrübəsinə, beynəlxalq jurnalistikanın prinsip və normalarına, eyni zamanda beynəlxalq təşkilatların (UNESCO, ATƏT, AŞPA) jurnalistin peşə fəaliyyəti ilə bağlı qəbul etdikləri tövsiyə xarakterli sənədlərə istinad edilib.

REKTORLARIMIZ...

## O məni felyeton yazdığım üçün qova da bilərdi



Faiq Bağırzadə

***BDU-nun on yeddinci rektoru Faiq Bağırzadə haqqında yazarkən yadıma tələbəlik illərim düşdü. Ona görə yox ki, mən BDU-nun Jurnalistika fakültəsində oxuyarkən Faiq müəllim rektor idi.*** Əgər Faiq müəllim felyeton yazdığım üçün məni Universitetdən qovsaydı, bu gün mən nə tədqiqatçı alim idim, nə də bu məqalənin müəllifi. Yəqin bu fakt oxucu üçün də maraqlıdır, odur ki, bu haqda ətraflı məlumat vermək istərdim.

1987-ci ilin yayı idi. III kursda oxuyurdum. Yayda Qəbələ (o zaman Qutqaşen adlanırdı) rayonunda "Qalibiyyət" qəzetində istehsalat təcrübəsində olarkən "Kəlbətin" əminin Bum səfəri" sərlövhəli bir felyetonum çap edilmişdi. Felyetonda rayon Yol İstismar İdarəsi, rayon İcrayə Komitəsi və dolayısı ilə rayon Partiya Komitəsinin yarıtmaz "işini" tənqid etmişdim. Bundan hiddətlənən rayon Partiya Komitəsinin rəhbərliyi məsələni birbaşa rayon Partiya Komitəsinin bürosunda qaldırır və BDU-nun rəhbərliyinə məktub göndərərək mənim Universitetin tələbələri sırasından xaric edilməyimi tələb edir.

Məktubla əlaqədar məni rektorun iş otağına apardılar. Mən otağa girəndə Faiq müəllim yazı masasının arxasında oturmuşdu və felyetonu oxuyurdu. Otaqdakı sükut məni daha da vahiməyə saldı. Fikirləşirdim ki, indi rektor başını qaldırıb məni tənbeh edəcək, üstümə qışqıracaq... Birdən Faiq müəllim qəzeti kənara qoyub başını qaldırdı. Üzgözündə qəzəb görmədim. Əksinə mülayim bir səslə "Amma yaman yazmısan ha. Deyəsən, Cəlil Məmmədquluzadənin felyetonlarını çox oxuyursan. Gələcəkdə daha güclü qələm sahibi olmasan, Qulu Xəlilovun sənə öyrətdikləri halalın olmasın!" - deyə yarıciddi, yarızarafat qapını mənə göstərdi. Doğrusunu deyim ki, Faiq müəllimin bu isti münasibəti məni lap çaşdırdı. Çünki onun yanına gəlməmişdən bir neçə dəqiqə əvvəl prorektor otağında elə bir qışqır-bağır salmışdı ki, mən artıq qovulma əmrimi alacağımı gözləyirdim...

BDU-ya 17 il rəhbərlik edən Faiq Məmməd oğlu Bağırzadə 1926-cı ildə Bakıda dünyaya göz açıb. 132 saylı orta məktəbi əla qiymətlərlə başa vuran gənc 1943-cü ildə Azərbaycan Dövlət Sənaye İnstitutuna (indiki Neft Akademiyasına) daxil olub. Ağır müharibə şəraiti onu oxuya-oxuya işləməyə vadar edib. İ.M.Qubkin adına Geologiya İnstitutunda baş laborantlıqdan başlayan gənc tədqiqatçı tez bir zamanda "Qobustan neftkəşfiyyat" trestində, "Neft daşları" kontorunda mühəndis-geoloq vəzifəsinə kimi ucalıb. Bir neçə il sonra gənc geoloq Azərbaycan Elmi Tədqiqat Neft Geoloji Kəşfiyyat İnstitutunun çöl dəstəsinin mühəndis-geoloqu, daha sonra isə rəisi işləyib.

F.Bağırzadə ilk pedaqoji fəaliyyətinə 1952-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft Kimya İnstitutunda (indiki Neft Akademiyasında) başlayıb. 1953-cü ildə geologiya-mineralogiya üzrə namizədlik, 1964-cü ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə edən Faiq müəllim 1970-ci ilə qədər bu institutda çalışıb. O, burada kafedra müdiri, geoloji kəşfiyyat və xarici vətəndaşların təlimi fakültəsində dekan olub. Amma bu vəzifələr onu elmi ixtiralardan yayındıra bilməyib. Faiq müəllim istedadlı, bacarıqlı alim kimi geologiyanın və neft-qaz geologiyasının inkişafına böyük kömək göstərmiş, Azərbaycanın, Dağıstanın neftli-qazlı sahələrinin öyrənilməsində fəal iştirak etmiş, Cənubi Xəzər çökəkliyinin dəniz neft və qaz yataqlarının tədqiqi ilə məşğul olmuşdur. O, elmi-tədqiqat işlərində bu sahədə olan problemlərdən, onların aradan qaldırılması yollarından geniş bəhs edib. 12 monoqrafiyanın, dərsliyin və tədris vəsaitlərinin müəllifi olan Faiq müəllim bu sahədə yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da əməyini əsirgəməyib. Bilgisini mükəmməlləşdirmək üçün nəzəriyyə ilə təcrübəni birlikdə aparıb.

1970-ci ilin ortalarından BDU-ya rektor təyin edilən F.Bağırzadə 1987-ci ilin əvvəllərinə kimi bu vəzifəni icra edib. O, Universitetə rəhbərlik etdiyi illərdə qüdrətli elm ocağının inkişafı üçün əlindən gələni əsirgəməyib. 1978-ci ildə universitetdə ilk dəfə tədris hissəsinin işçiləri tərəfindən fakültə və kafedralarda tədris sənədlərinin vəziyyətinin 3 ay davam edən təftişi keçirilir və nəticədə kafedraların böyük əksəriyyəti tədris materiallarını, sənədlərini qaydaya salır. 1976-cı ildən sonra universitetin təhsil həyatının səciyyəvi cəhətlərindən biri ali məktəb ictimaiyyətinin aktual tədris-metodika məsələlərinin həllinə geniş cəlb edilməsi oldu. 1978-ci ildə həmçinin universitetdə məzunların stajkeçmə sisteminin yaradılmasına başlandı. 1984-cü ilin sentyabrında ADU-nun Elmi şurasında qəbula hazırlıq, onun təşkili və imtahanların keçirilməsi üzrə komissiya yaradıldı. Bu proses uğurla Faiq müəllimin nəzarəti altında həyata keçirildi".



Məhz Faiq müəllimin BDU-ya rəhbərlik etdiyi illərdə universitetin beynəlxalq əlaqələri yüksək mərhələyə qalxmağa başladı və 1970-ci illərin ortalarında bu əlaqələr daha da genişləndi. F.Bağırzadə bir ziyalı, ictimai xadim kimi yalnız universitetdə deyil, ölkədə baş verən bütün ictimai, siyasi, mədəni hadisələrdə yaxından iştirak edib. Azərbaycan SSR Əməkdar Elm Xadimi fəxri adı daşıyan Faiq müəllim iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

Görkəmli alim 1988-ci ilin martında (anadan olduğu ayda) Bakıda vəfat edib. Mən o zaman Jurnalistika fakültəsinin V kursunda oxuyurdum. Bu xəbəri də universitetdə eşitdim və çox kədərləndim. Ona görə yox ki, Faiq müəllim məni BDU-dan qovmamışdı, ona görə ki, doğru sözü qiymətləndirən, haqqa dəstək olan bir ziyalı köçdü bu dünyadan. O hadisədən 30-il keçib. Amma hər dəfə BDU-u ilə bağlı bütün uğurlarım üçün "baiskarı"ma Tanrıdan rəhmət diləyirəm!

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi kafedrasının dosenti*

# BDU-nun tələbəsi Mədəniyyət Nazirliyinin ədəbiyyat müsabiqəsinin qalibi oldu



*Tarix fakültəsinin IV kurs tələbəsi Fərhad Kərimli Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin elan etdiyi "Vətənvərpərlik mövzusunda ədəbiyyat müsabiqəsi"ndə "Peşəkar yaradıcı şəxslər" kateqoriyasında hekayə janrı üzrə I yerə layiq görülüb.*

"Vətənvərpərlik mövzusunda ədəbiyyat müsabiqəsi"nə ümumilikdə 321 əsər təqdim edilib. "Peşəkar yaradıcı şəxslər" kateqoriyası üzrə 50, "Həvəskar yaradıcı şəxslər" kateqoriyası üzrə 193, "10-15 yaş arası uşaqlar" kateqoriyası üzrə 25 əsər iştirak edib. Fərhad Kərimli "Bir qucaq torpaq" adlı hekayəsi ilə müsabiqəyə qatılıb və qalib elan olunub.

Qeyd edək ki, "Peşəkar yaradıcı şəxslər" kateqoriyasında hər bir janr üzrə qaliblərə 1500 manat pul mükafatı ayrılıb.

Fərhad Kərimlini təbrik edir, təhsilində və yaradıcılığında ona yeni-yeni uğurlar arzulayırıq.

# Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün nəzərdə tutulan təhsil qrantının qalibi BDU-da doktorantura təhsili alacaq

***Azərbaycan Respublikası Prezidentinin "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi" haqqında 2018-ci il 10 yanvar tarixli Sərəncamına uygun olaraq, fəlsəfə doktorluğu hazırlığı proqramı üzrə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinə qəbul olunmuş Əlcəzair vətəndaşı Lemunes Nour El Houda Djoumana ilə fakültədə tanışlıq görüşü keçirilib.*** Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsini icra edən Əlmdar Cabbarlı əcnəbi doktorantı Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün nəzərdə tutulan təhsil qrantını qazanması münasibətilə təbrik edib, eyni zamanda doktorantura təhsili üçün BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsini seçdiyinə görə ona təşəkkürünü bildirib. O, Qoşulmama Hərəkatına 2019-cu ildən Azərbaycanın sədrlik etdiyini və bu təşkilatın hər zaman ölkəmizin haqlı mövqeyini dəstəklədiyini xatırladıb. Sonra əcnəbi doktoranta ölkəmizdəki təhsil mühiti, Azərbaycanın ilk Universiteti olan BDU-nun tarixi və bu günü, eyni zamanda Kitabxanaçılıq-informasiya fakültəsi barədə geniş məlumat verilib.

Görüş üçün təşəkkürünü bildirən Əlcəzairli doktorant Lemunes Nour El Houda Djoumana ölkəmiz haqqında bir çox məlumatlara, o cümlədən Vətən müharibəsindəki qələbəmizlə bağlı bilgilərə malik olduğunu bildirib, eyni zamanda Azərbaycanın ən nüfuzlu ali təhsil müəssisəsində təhsilini davam etdirməkdən məmnunluğunu ifadə edib. Daha sonra doktorantın təhsil müddətində tədqiqat aparacağı mövzularla bağlı müzakirələr aparılıb.

# BDU-nun tələbələri Mərkəzi Bankın təlimlərində iştirak edib

***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbələri Mərkəzi Bank tərəfindən keçirilən təlimlərdə iştirak edib. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" çərçivəsində Mərkəzi Bank tərəfindən "Rəqəmsal ödənişlərin üstünlükləri", "Sığorta" və "İzafi borclanma" mövzularında virtual təlimlər keçirilib.***

Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə savadlılığı şöbəsinin mütəxəssisi Fərəh Əliyevanın moderatorluğu ilə keçirilən təlimlərdə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin III və IV kurslarında təhsil alan 200-dən artıq tələbəsi iştirak edib.

Mərkəzi Bankın Ödəniş Sistemləri və Hesablaşmalar Departamentinin Milli ödəniş sisteminin inkişafı və nəzarəti şöbəsinin mütəxəssisi Rəşad Qasımov "Rəqəmsal ödənişlərin üstünlükləri", Sığorta fəaliyyətinə nəzarət departamentinin Siyasət və metodologiya şöbəsinin aparıcı analitiki Afət Həsənova "Sığorta", Azərbaycan Bank Tədris Mərkəzinin biznesin inkişafı üzrə meneceri Rauf Agayev "İzafi borclanma" mövzularında təqdimatla çıxış ediblər. 5 gün davam edən təlimlərdə Mərkəzi Bankın məsul işçiləri və Bank Təlim Mərkəzinin əməkdaşları tərəfindən tələbələrə Dövlət Proqramı çərçivəsində məlumatlar verilib.

# BDU-nun 99 yaşlı Şərqşünaslıq fakültəsi

***Azərbaycanda istər müstəqillik, istərsə də sovetlər birliyi dövründə ölkə üçün ən nüfuzlu elmi və ixtisaslı kadrlar hazırlamış təhsil ocaqlarından biri Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi hesab olunur. Bugün bu qocaman fakültənin yaşını bir əsrdən bircə il ayırır. Böyük ictimai və təhsil tarixinə malik olan Şərqşünaslıq fakültəsi doxsan doqquzuncu baharını təntənə ilə qeyd edir.***

XX əsrin əvvəllərində Azərbaycanda ilk şərqşünaslıq məktəbinin əsasının qoyulması Avropa və Rusiyada buna bənzər məktəblərin olması ilə əlaqədar idi. Şərqşünaslığın bütün dünyada olan qalibiyyətli yürüşü o zamankı hökuməti belə bir ixtisası açmağa sövq etmişdi. 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının I qurultayı şərqşünaslıq üzrə ixtisaslı kadrların hazırlanması və bu istiqamətdə nüfuzlu alimlərin ölkəyə dəvət olunmasını, prioritet məsələ kimi Şərqin tarix və mədəniyyətinin öyrənilməsinin zəruriliyini vurğulamış, bu aspektdə tədqiqatların Bakı Universitetində mərkəzləşdirilməsini tövsiyə etmişdi.

1919-cu ildə Bakı Dövlət Universiteti təsis edilərkən yeni yaranmış təhsil ocağının tarix-filologiya ixtisasının tərkibində XIX əsrdən etibarən Qərb dünyasından Şərqə doğru yayılan Şərqi öyrənən cəmiyyətlərin inkişafı ilə əlaqədar belə bir məktəbin yaranması ölkəmizdə bu unikal və yeni sahədə kadrlar hazırlanması məsələsini gündəmə gətirmişdi. Şərq şöbəsinin açılması ilə Cənubi Qafqazda bu sahədə ən intellektual mərkəzlərdən birinin əsasının qoyulması klassik universitetə modern görünüş gətirmişdi. 1922-ci ilə qədər keçən dövr ərzində Şərq şöbəsi fəaliyyətini davam etdirmiş, 1922-ci il iyulun 13-də respublika hökuməti Universitetin Tarix-filologiya fakültəsi nəzdində olan Şərq şöbəsinin müstəqil Şərq fakültəsinə çevrilməsi barəsində müvafiq qərar qəbul etmişdi. Müstəqil fakültənin yaranması və fakültənin ənənələrinin dərinləşdirilməsi məqsədi ilə Şərq kitabxanasının təchizatı üçün xüsusi vəsait ayrılmışdı. O zaman fakültənin yaradılması tədqiqatçı şərqşünasların elmi məktəbini yaratmaq, türk və İran xalqlarının tarixi, dili və ədəbiyyatı üzrə mütəxəssislər hazırlamaq adı altında əsaslandırılmışdı.

*Yeni fakültənin ilk dekanı professor P.K.Juze olmuşdur. Rusiyada Panteleymon Krestoviç Juze kimi tanınan tarixçi, dilçi, ilahiyyatçı və mənbəşünas alim Bəndəli ibn Saliba əl-Cauzi (1871-1942) əslən fələstinli ərəb idi. O, təhsil almaq üçün Kazan şəhərinə gəlmiş, universiteti bitirdikdən sonra orada pedaqoji fəaliyyətə başlamış və 1920-ci ildə professor kimi universitetin ilk rektoru tərəfindən Bakı Universitetinə dəvət olunmuşdu.* Lakin o, Azərbaycana müstəqil Cümhuriyyət devrildikdən sonra, bolşevik hakimiyyətinin ilk aylarında gələ bilmişdi. Juze elmi həyata bağlı olduğundan ona əvvələr Azərbaycanda verilən vəzifəni qəbul etməmişdi. Ancaq bu dəfə yeni fakültəyə can vermək onu bu işə həvəsləndirmişdi. Elm təəssübkeşi olan Juze fəaliyyətinin elə ilk illərində ərəb filologiyası üzrə professor seçilmiş, 1926-cı ilə qədər fakültəyə rəhbərlik etmişdir. Onun rəhbərlik etdiyi dövrdə Şərq fakültəsinə ilk dəyərli kitablar, əlyazmalar alınaraq gətirilmiş, görkəmli alimlər – akademiklər N.Y.Marr, İ.İ.Meşşaninov, V.V.Bartold, A.N.Samoyloviç, professorlar: İ.N.Aşmarin, A.A.Romaskeviç, R.Şor, B.V.Çobanzadə, A.S.Qubaydulin və başqaları böyük elmi-pedaqoji iş aparmışlar. Ardıcıl olaraq 1924-cü ildə prof. B.V.Çobanzadə, 1926-cı ildə isə prof.A.S.Qubaydulin fakültənin dekanı təyin edilmişdilər.

1930-cu ildə Universitetin bazası əsasında 5 institut açıldığına görə Şərq şöbəsi bağlanmış, yalnız 1934-cü ildə yenidən təşkil edilmişdir. Lakin 30-cu illərin sosial-ictimai vəziyyətinin ən gərgin dövrlərində fakültə ilkin sürətini bir qədər itirmiş, gah Filologiya fakültəsi nəzdində iranşünaslıq və türkologiya şöbələri olmaqla, gah da müstəqil fakültə kimi fəaliyyət göstərmişdir. 1946-cı ildə bərpa olunsa da, 1950-ci ildə yenidən öz müstəqil fəaliyyətini əldən vermişdir. Nəhayət, sonuncu dəfə 1957-ci ildə ərəb, fars və türk şöbələri olmaqla Şərqşünaslıq fakültəsi yenidən təsis edilmişdir. 1957-ci ildə həmçinin ərəb dili, fars və türk dillərini əhatə edən Yaxın Şərq dilləri və ərəb, fars, türk ədəbiyyatları tədris olunan Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedraları yaradılmışdır. Ərəb dili kafedrasının müdiri vəzifəsini böyük ərəbşünas, professor Ələsgər Məmmədov (1957-1989) və dosent İsmayıl Şəms (1989-1991) tutmuşlar. 1989-cu ilədək Yaxın Şərq dilləri kafedrasının müdiri iranşünas alim, professor Rəhim Sultanov, sonra isə professor Həsən Mahmudov olmuşlar. 1990-cı ildə bu kafedra fars dili (1991-ci ilədək müdir professor Həsən Mahmudov) və türk dili (1991-ci ilədək müdir f.e.n. Rüfət Rüstəmov) kafedralarına ayrılmışdır.

Müxtəlif illərdə Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasına professor Mübariz Əlizadə (1957-1965, 1970-1989), akademik Həmid Araslı (1965-1967), dosent Yusif Şirvan (1967-1970) və professor Malik Mahmudov (1989-1991) rəhbərlik etmişlər.

Professor Rəhim Sultanov (1957-1960), dosent Yusif Şirvan (1960-1961), professor Ələsgər Məmmədov (1961-1962), professor Mübariz Əlizadə (1962-1964), professor Həsən Mahmudov (1964-1977), professor Şulan Şirəliyev (1977-1981), akademik Vasim Məmmədəliyev (1981-1991), dosent Elxan Əzizov (1991-1999), dosent Əbdüləli Kərimov (1999-2002) fakültə dekanı vəzifəsində işləmişlər. 2002-ci ildən fakültənin dekanı professor Elxan Əzizovdur.

*Şərqşünaslıq fakültəsində tədrisin yüksək səviyyədə aparılmasında, ölkəmiz üçün şərqşünas kadrların yetişdirilməsində, ərəbşünaslıq, iranşünaslıq və türkologiya sahəsində elmi nailiyyətlər əldə edilməsində akademik Həmid Araslı, professorlar Ələsgər Məmmədov, Rəhim Sultanov, Aida İmanquliyeva, Mübariz Əlizadə, Əhməd Şəfai, Neyyərzaman Hatəmi, Həsən Mahmudov, Malik Mahmudov, Mirzə Rəhimov, Aniyə Ələkbərova, Aslan Eyvazov, Şulan Şirəliyev, dosentlər Əli Azəri, Həsən Əlizadə, Yusif Şirvan, Yusif Ziya Şirvani, Təhmurəs Cahani, Ağadadaş Dadaşov, Əbdüləli Kərimov, Fəxrəntac Zülfüqarova, İsmayıl Şəms, Tofiq Cahangirov və başqaları əvəzsiz xidmətlər göstərmişlər. Azərbaycanda samişünaslıq və islamşünaslığın inkişafında akademik Vasim Məmmədəliyev böyük rol oynamışdır.*

1957-ci ildən fəaliyyət göstərən ərəb, fars, türk şöbələri ilə yanaşı, 1993-cü ildə ibri (yəhudi), 2000-ci ildə yapon, 2001-ci ildə urdu, 2003-cü ildə Çin, 2007-ci ildə Koreya dili şöbələri açılmışdır.

2016-cı ildən fakültədə ərəb, fars, türk dili və ədəbiyyatı üzrə filologiya ixtisası fəaliyyət göstərməyə başlamış, 2019-cu ildən ərəb və fars dilləri üzrə tərcümə ixtisasları fakültənin ixtisasları sırasına əlavə edilmişdir.

Şərqşünaslıq fakültəsi keçən 99 ildə ölkə üçün müxtəlif sahələr üzrə mütəxəssislər ordusu hazırlamışdır. Bu mütəxəssislərin bir qrupu xarici ölkələrin vətəndaşları olub. Bu vətəndaşlar içərisində Vyetnam, Polşa, Macarıstan, Kamboca, Laos, Çin, İran, Türkiyə, Almaniya və s. kimi ölkələr vardır.

İndiyədək fakültəni bitirmiş yeddi nəfər Milli Məclisin üzvü, iyirmi beş nəfər Azərbaycanı xaricdə təmsil edərək, fövqəladə və səlahiyyətli səfir kimi fəaliyyət göstərmiş və hazırda da diplomatik, xüsusi xidmət, sərhəd, gömrük, miqrasiya orqanlarında fakültənin məzunları fəaliyyət göstərirlər.

Fakültənin elmi istiqamətdə şöhrətli məzunları arasında AMEA-nın həqiqi üzvləri –akademiklər Rafael Hüseynov, Gövhər Baxşəliyeva, Nailə Vəlixanlı və başqalarının adını qeyd etmək olar.

Bugün Şərqşünaslıq fakültəsi ötən əsr boyu malik olduğu böyük ənənə və tarixə söykənir, dünya standartlarına cavab verməyə çalışır, ixtisaslarının hədlərini genişləndirərək Şərqin 8 ölkəsinin regionları, dil və ədəbiyyatı sahələrini əhatə etməklə yeni kadrlar hazırlayır. Tarixi olmaq əsası, özülü olmaq deməkdir. "Ot kökü üstdə bitər" deyib atalar. Şərqşünaslıq fakültəsi bir əsrlik yaşına doğru yeni ümidlər və amallar ilə irəlləyir. Qarabağı düşməndən azad edən qəhrəman Azərbaycan gənci bu sahədə də öz sözünü deyəcək, növbəti əsrdə şərqşünaslar köklü məktəbin layiqli davamçıları olduqlarını bir daha sübut edəcəklər.

***Şahin Yusifli,***
*Şərqşünaslıq fakültəsinin dekan müavini*

# BDU-nun dosenti işğaldan azad edilmiş ərazilərdə təhsil sisteminin bərpası haqqında məruzə edib

***Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti Ələmdar Cabbarlı 2021-ci il 27-28 mart tarixlərində Türkiyə Cümhuriyyətinin Fatih Sultan Mehmet Universitetinin təşkilatçılığı ilə keçirilən Təhsil Araşdırmaları Konfransında "Azərbaycanın erməni işğalından azad olunmuş ərazilərində təhsilin bərpası və inkişafı" mövzusunda məruzə edib.***

Məruzədə öncə konfrans iştirakçılarına Azərbaycan torpaqlarının işğal tarixi haqqında məlumat verilib. 30 ilə yaxın davam edən sülh danışıqlarının heç bir nəticə vermədiyi və nəhayət, Azərbaycan ordusunun qazandığı parlaq qələbə ilə işğala son qoyulduğu diqqətə çatdırılıb. Ümummilli liderimiz Heydər



Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamı bir daha xatırladılaraq, 44 günlük Vətən Müharibəsində qardaş Türkiyənin Azərbaycana verdiyi mənəvi və siyasi dəstəkdən bəhs olunub. Sonra Qarabağ ərazisində təhsilin inkişaf tarixinə nəzər salınıb, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada 1830-cu ildə ilk dünyəvi məktəbin açıldığı, ümumiyyətlə, bu bölgənin Azərbaycanın elm və təhsil tarixindəki önəmli yeri barədə danışılıb. 30 il ərzində erməni vandalları tərəfindən işğal edilmiş ərazilərdə digər infrastruktur sahələri ilə yanaşı təhsil müəssisələrimizin, orta məktəb, musiqi və peşə məktəblərinin binalarının, uşaq bağçalarının tamamilə dağıdıldığı, yandırıldığı faktlarla diqqətə çatırılıb. Müharibə nəticəsində minlərlə müəllimin iş yerlərindən, on minlərlə şagirdin keyfiyyətli təhsil imkanlarından məhrum olduğu vurğulanıb.

İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri, eyni zamanda həmin bölgədə təhsilin bərpası və inkişaf etdirilməsi ilə bağlı dövlətimiz tərəfindən bütün işlərin planlaşdırıldığı, artıq quruculuq işlərinə başlanıldığı barədə danışılıb. Məruzədə azad edilmiş ərazilərdə təhsilin bərpası və inkişafı ilə bağlı bir sıra təkliflər də irəli sürülüb, təhsil sahəsində quruculuq işlərində qardaş Türkiyənin təcrübəsindən yararlanmağın yaxşı nəticələr verə biləcəyi qeyd edilib.

Məruzə ilə bağlı çıxış edən Fatih Sultan Mehmet Universitetinin əməkdaşları Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsilin qurulmasına verə biləcəkləri dəstək və töhfə haqqında fikirlərini bölüşüblər.

# Akademik əməkdaşlıq BDU-nun beynəlxalq əlaqələrinin fəaliyyətinin əsas istiqamətini təşkil edir

***Bakı Dövlət Universiteti dünyanın elm və təhsil məkanında nüfuzunu daha da artırmaq, yeni universitet assosiasiyalarına qəbul olunmaq, Avropanın elm və təhsil məkanında gedən inteqrasiya proseslərinə qoşularaq bu sahədə səmərəli fəaliyyət göstərmək, müxtəlif beynəlxalq proqramların iştirakçısı olmaq məqsədilə dünyanın aparıcı ali məktəbləri, elm və təhsil müəssisələri, müxtəlif qurumları ilə sıx əlaqələr yaradıb. Bu əlaqələrin genişlənməsində universitetimiz xarici ölkələrin ali məktəbləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa, beynəlxalq təhsil proqramlarında iştiraka, müxtəlif elm-təhsil qurumları ilə birgə layihələrin həyata keçirilməsinə, universitetlərin beynəlxalq assosiasiyalarında təmsil olunmağa xüsusi əhəmiyyət verir.***

**Bu məsələlərlə bağlı BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənovla müsahibə apardıq.**

***- Rauf müəllim, Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələri hansı istiqamətlərdə inkişaf edir?***

- Nüfuzlu universitetlərlə əməkdaşlıq, beynəlxalq reytinqlərdə iştirak, Universitetdə xarici tələbələrin, mübadilə proqramlarının sayının artırılması, akademik əməkdaşlıq BDU-nun beynəlxalq əlaqələrinin əsas istiqamətlərini təşkil edir. Eyni zamanda ictimai etimad və nüfuzun qorunmasına, diplomatik nümayəndəliklərlə əməkdaşlığa, yeni xarici əlaqələrin qurulmasına, beynəlxalq əməkdaşlıq çərçivəsində elmi tədqiqat istiqamətlərinin artırılmasına da xüsusi diqqət yetirilir.

***- Xarici ölkə universitetləri ilə əlaqələrin qurulmasında prioritetlər nədən ibarətdir?***

- Xarici ölkə universitetləri ilə əlaqələrin qurulması zamanı universitetlərin beynəlxalq reytinqlərdə yeri, inkişaf potensialı nəzərdən keçirilir. Bununla yanaşı, universitetlərin fəaliyyət istiqamətləri, maddi-texniki və elmi-tədqiqat potensialının olmasına diqqət yetirilir.

***- Hazırda BDU-nun hansı universitetlərlə əlaqələri qurulur və inkişaf etdirilir?***

- BDU-da fəaliyyət göstərən beynəlxalq mərkəzlərin (Konfutsi institutu, Bakı Sejong İnstitutu - Koreya Mərkəzi, Abay mərkəzi və Rus mərkəzi) fəaliyyətlərinin təkmilləşdirilməsi istiqamətində səylər gücləndirilmişdir və mövcud müqavilələrin yenilənməsi istiqamətdə işlər görülür. Belə ki, noyabr ayında BDU nəzdində King Sejong İnstitutunun fəaliyyətinin davam etdirilməsi məqsədilə Kyunqvun Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır. Məlumat üçün qeyd edim ki,



King Sejong İnstitutu Cənubi Qafqazda ilk dəfə Bakı Dövlət Universitetində yaradılmışdır. Konfutsi institutunun fəaliyyətinin davam etdirilməsi üçün Çinin Anhui Universiteti ilə əməkdaşlıq müqaviləsi bağlanılmışdır. Türkiyənin TİKA təşkilatı ilə 2020-ci il 25 dekabr tarixində onlayn görüş keçirilmişdir və əlaqələrin daha gücləndirilməsi və bununla bağlı layihə təkliflərin TİKA-ya təqdim olunması istiqamətində razılığa gəlinmişdir. Qeyd edək ki, Yunis Əmrə İnstitutunun rəhbərliyi ilə də görüş keçirilmiş, BDU-da Yunis Əmrə Mərkəzinin yenidən açılması istiqamətində razılığa gəlinsə də, pandemiyaya görə Yunis Əmrə İnstitunun Bakı nümayəndəliyinin fəaliyyətini müvəqqəti dayandırması ilə əlaqədar bu məsələdə müvəqqəti fasilə yaranmışdır. Hazırda Türkiyənin İzmir Texnologiya İnstitutu, Eskişehir Texniki Universiteti, Rusiyanın Tambov Dövlət Universiteti, Ukraynanın Kiyev Milli Linqivistika Universiteti, Çexiyanın Cənubi Bohemia Universiteti, Qazaxıstanın Satbayev Universiteti, Fransanın Lion-2 Universiteti, Qazaxıstanın Qazax Milli Pedoqoji Universiteti ilə əlaqələrin qurulması istiqamətində işlər davam etdirilir.

***- Hansı beynəlxalq elm və təhsil təşkilatları ilə, assosiasiya və birliklərlə əməkdaşlıq əlaqələri qurulur?***

- Avrasiya Universitetlər Assosiasiyası, Xəzəryanı Ölkələrin Universitetləri Assosiasiyası, Qara Dəniz Universitetləri Assosiasiyası, Kitabxanalar üçün Elektron İnformasiya Beynəlxalq Konsorsiumu, MDB ölkələrinin Nanotexnologiya Beynəlxalq İnnovasiya Mərkəzi, Azərbaycan-Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyası, Nüvə Texnologiyası Sahəsində Təhsilin və Kadr Hazırlığının Təşkili Regional Şəbəkəsi, Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyası ilə əlaqələr qurulub. Hazırda ICESCO-nun nəzdində fəaliyyət göstərən İslam Dünyası Universitetləri Federasiyasına üzv olmaq istiqamətində işlər icra olunur.

***- Beynəlxalq proqram və layihələrlə iş hansı səviyyədədir? Universitetin bu sahədə uğurları haqqında məlumat verərdiniz?***

- Ötən ilin oktyabr ayında İtalyanın La Sapienza Universiteti ilə Erasmus+KA 2 proqramı çərçivəsində Azərbaycanda Ekoloji Vəziyyətlə bağlı İnnovativ Tədris Mərkəzi /İTACA layihəsi üzrə tərəfdaşlıq müqaviləsi imzalanmışdır. Layihənin məqsədi Azərbaycanda fövqəladə ekoloji vəziyyətin həllinə yönəlmiş üçüncü pilləli təhsilin yaradılması, inkişaf etdirilməsi məqsədilə Təlim Mərkəzini yaratmaq və inkişaf etdirməkdir. Hazırda BDU ilə İsveçin Linköpinq Universiteti arasında Erasmus+ KA2 proqramı çərçivəsində MAGNUS layihəsinin icrası üzrə imzalanmış tərəfdaşlıq müqaviləsinə əsasən BDU-da magistratura pilləsində yeni ixtisas olan "Oyun dizaynı və mobil tətbiqin inkişafı" ("Game Design and Mobile Application Development") ixtisaslaşması açılmışdır və növbəti tədris ilindən tələbə qəbulu həyata keçiriləcək. Cari ildə Ruminiyanın Kluj-Napoca Kənd Təsərrüfatı Elmləri və Baytarlıq Tibb Universiteti və İspaniyanın Kadiz Universiteti ilə Erasmus proqramı çərçivəsində yeni müqavilələr imzalanmışdır. Türkiyənin Eskişehir, Portuqaliyanın Tomar Texniki Universiteti ilə Erasmus KA 107 çərçivəsində müqavilə imzalanmışdır. Türkiyənin Selçuk və Yıldız Texniki Universitetləri ilə isə Mevlana mübadilə proqramı çərçivəsində müqavilənin imzalanması üçün danışıqlar aparılır. Portuqaliyanın Tomar Texniki Universiteti və Koreya Respublikasının Keymyunq Universiteti ilə anlaşma memorandumlarının imzalanması ilə bağlı işlər aparılır. Erasmus KA 107 mübadilə proqramı çərçivəsində İspaniyanın Kadiz, Polşanın Jeşuv və Türkiyənin Sivas universitetlərində təhsil almaq üçün müraciət edən tələbələrin seçilməsi üçün müsahibə təşkil edilmiş və nəticələr elan olunmuşdur. Ruminiyanın Yassı Aleksandru İoan Kuza Universitetinə Erasmus proqramı çərçivəsində seçimlərdə iştirak etmək üçün elan verilmişdir. Türkiyənin nüfuzlu universitetlərindən olan Uşak Universiteti və Qafqaz Universiteti ilə Mevlana müəllim-tələbə mübadilə protokolu imzalanmışdır.

***- BDU-nun tərəfdaş olduğu proqramlar, ikili diplom layihələri, bu sahədə gələcəkdə reallaşdırılması nəzərdə tutulan planlar nələrdir?***

- BDU-nun beynəlxalq rəqabətliliyinin gücləndirilməsi istiqamətində, o cümlədən ikili diplomlar istiqamətlərdəki işlərimiz pandemiya dövrünün çətinliklərinə baxmayaraq müvəffəqiyyətlə davam edir. Ötən ilin sentyabr ayında Qazaxıstanın Əl Fərabi adına Qazax Milli Universiteti ilə Bakı Dövlət Universiteti arasında Hüquq fakültələrində "Dəniz və enerji hüququ" magistratura ixtisaslaşması üzrə kadr hazırlığı sahəsində ikili diplom proqramı barədə müqavilə imzalanıb. Eyni zamanda 2020/2021-ci tədris ilində BDU ilə Fransanın Lion-2 Universitetinin Hüquq fakültələri arasında "Əqli mülkiyyət hüququ" ixtisası üçün ikili magistr diplomu proqramı üzrə müqavilənin imzalanacağı haqqında da razılığa gəlinmişdir. BDU ilə İsrailin Holon Texnologiya İnstitutu arasında kompyuter elmləri ixtisası üzrə bakalavr pilləsində ikili diplom layihəsi üzrə müqavilə imzalanmışdır. Bununla yanaşı Özbəkistanın Daşkənd Şərqşünaslıq İnstitutu ilə də üçlü diplom istiqamətində, İsveçrənin UBİS universiteti ilə beynəlxalq münasibətlər istiqaməti üzrə magistratura pilləsində ikili diplom proqramı üzrə danışıqlar aparılır. 2020-ci ilin noyabr ayında BDU ilə Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA) arasında anlaşma memorandumu, dekabr ayında isə Bakı Dövlət Universiteti ilə Özbəkistanın Daşkənd Dövlət Şərqşünaslıq Universiteti arasında tərəfdaşlıq müqaviləsi imzalanmışdır. Memoranduma əsasən, BDU-nun Sosial elmlər və psixologiya fakültəsində yüksək ixtisaslı kadrların hazırlanması və tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə ixtisasyönümlü təlimlər təşkil ediləcək, tələbələrə mühazirə və praktiki formada olmaqla professor Toby Long (Corctaun Universiteti) tərəfindən mühazirələr oxunacaq, təlimləri uğurla başa çatdıran təhsilalanlara sertifikatlar təqdim olunacaq.

*Müsahibəni hazırladı:*

***Günel Orucəliyeva***
***Nərminə Əsədova***

# "Azərbaycan ədəbiyyatında Nizami ənənələri" mövzusunda elmi seminar

***Martın 30-da Filologiya fakültəsində Azərbaycan ədəbiyyatı tarixi kafedrasının təşkilatçılığı ilə "Azərbaycan ədəbiyyatında Nizami ənənələri" mövzusunda elmi seminar keçirilib. Microsoft Teams platforması üzərindən təşkil olunmuş tədbirdə fakültənin professor-müəllim heyəti və tələbələr iştirak edib.***




Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini Mehriban Əlizadə "Nizami ili" çərçivəsində keçiriləcək tədbirlər haqqında məlumat verib, seminarın mövzusunun əhəmiyyətindən danışıb.

Professor Sənan İbrahimov "Şərq ədəbiyyatında Nizami ənənələri", dosent Lalə Əliyeva "Nizami Gəncəvi: sələflər və xələflər", dosent Sevinc Qocayeva "Nizami ideyaları Orta əsrlər Azərbaycan ədəbiyyatında", filologiya üzrə fəlsəfə doktoru Samirə Məmmədova "Nizami Qərb araşdırmalarında", Türkiyənin Səlcuq Universitetinin doktorantı Fəridə Cəfərova "Nizaminin "Yeddi gözəl" əsərində astroloji ünsürlər", fakültənin III kurs tələbəsi Arif Vəliyev isə "Nizami yaradıcılığında musiqi" adlı məruzələrlə çıxış ediblər.

Tədbirdə kafedranın magistrantları Aytən Şamilova və Gülay Tahirlinin ifasında N.Gəncəvinin qəzəlləri səsləndirilib.

Sonda Filologiya fakültəsinin dekanı dosent Elçin Məmmədov çıxış edərək Nizami irsinin öyrənilməsi və təbliğinin aktuallığından söz açıb, dahi şairin yubileyinə həsr olunmuş silsilə tədbirlərin, beynəlxalq elmi konfransın keçiriləcəyini vurğulayıb, məruzəçilərə təşəkkürünü bildirib.

# BDU-da 6 ixtisaslaşma beynəlxalq akkreditasiyadan keçdi

***Kimya fakültəsinin magistratura səviyyəsinin 6 ixtisaslaşması üzrə Ali Təhsildə Keyfiyyətin Təmin Olunması Avropa Assosiasiyasının (ENQA) üzvü, Təhsildə Keyfiyyətin Təminatı Avropa Reyestrində (EQAR) qeydiyyatdan keçmiş, Təhsildə Keyfiyyətin Təminatı Müstəqil Agentliyi (İQAA) tərəfindən təhsil proqramlarının beynəlxalq və Avropa keyfiyyət standartlarına uyğunluğun qiymətləndirilməsi - beynəlxalq akkreditasiyası aparılıb. Beynəlxalq akkreditasiya iki beynəlxalq ekspert komissiyası tərəfindən həyata keçirilib.***

"Üzvi kimya", "Yüksək molekullu birləşmələr kimyası" və "Neft kimyası" ixtisaslaşmaları üzrə ekspert qrupunda Qazaxıstanın K.İ.Satbayev adına Milli Tədqiqat Texniki Universitetinin akademik məsələlər üzrə prorektoru Rinat İsakov, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Üzvi kimya kafedrasının müdiri Valentin Nenaydeko, Türkiyə Yıldız Texniki Universitetinin kafedra müdiri Sevil Yücel, AMEA-nın Neft Kimya Prosesləri İnstitutunun elmi işlər üzrə direktor müavini Hikmət İbrahimov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı Fariz Əliyev və ekspert qrupunun koordinatoru Qaliya Raximcanova iştirak ediblər. "Qeyri-üzvi kimya", "Analitik kimya" və "Fiziki kimya" ixtisaslaşmaları üzrə ekspert qrupunda M.Aeuzov adına Cənubi-Qazaxıstan Universitetinin qeyri-üzvi maddələrin kimyəvi texnologiyası kafedrasının müdiri Qalina Seytmaqzimova, Lisabon Texniki Universitetinin professoru Armando Pombeiro, Münhen Texniki Universitetinin professoru Ralf Zimmerman, AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun elmi işlər üzrə direktor müavini Məhəmməd Babanlı, AMEA-nın doktorantı Emin Əliyev və ekspert qrupunun koordinatoru Karlıqaş Ciqitçeyeva iştirak ediblər.

Hibrid formatda təşkil olunan akkreditasiya zamanı ekspertlər magistratura təhsil proqramlarının təhsil, elm və digər sahələrdə 7 beynəlxalq və Avropa keyfiyyət standartlarına uyğunluğunu qiymətləndiriblər. 15-16 mart tarixlərində ekspertlər kafedralar tərəfindən ingilis dilində hazırlanmış özünütəhlil hesabatlarını analiz edərək, Universitet rəhbərliyi, fakültənin professor-müəllim heyəti, magistrantlar, məzunlar işəgötürənlərlə müsahibələrdən sonra keçirilən auditin ilkin nəticələrə görə fakültədə elm və təhsilin səviyyəsinin yüksək olduğunu qeyd ediblər.

# BDU-nun Elmi Kitabxanası elan edir



***BDU-nun professor-müəllim və tələbə heyəti, Elmi Kitabxananın oxucuları 10.03.2021-ci il tarixindən etibarən bir il müddətində Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində EBSCOHost elektron platformasının resurslarından istifadə edə biləcək.***

EBSCOhost aparıcı nəşriyyatların elmi resurslarının nüfuzlu əlaqələndiricisi və onlayn istinad sistemidir. Platforma ictimai, akademik, tibbi, korporativ və ali məktəb kitabxanaları üzrə xüsusi təyin olunmuş, konkret məzmunlu məlumat bazalarını təqdim edir.

EBSCO elektron məlumat bazasından istifadə Elmi Kitabxananın elektron kitabxana bölməsinin tammətnli məlumat bazaları rubrikasından (http://elibrary.bsu.edu.az/) əlçatandır.

# BDU-nun və "Unibank"ın insan resursları şöbələri arasında görüş keçirilib

***Bakı Dövlət Universiteti tələbələrin əmək bazarına hazırlığı, karyera imkanlarının genişləndirilməsi, tələbələr üçün iş imkanlarının daha əlçatan olması məqsədilə dövlət təşkilatları, ölkənin nüfuzlu şirkətləri ilə mütəmadi görüşlər keçirir. Bu istiqamətdə növbəti görüş BDU-nun İnsan resursları və hüquq şöbəsi ilə "Unibank"ın Təşkilati inkişaf və İnsan resursları şöbələri arasında keçirilmişdir.***

Görüşdə BDU-nun İnsan resursları və hüquq şöbəsinin müdiri Məhluqə Əfəndiyeva, şöbənin əməkdaşları, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri R.Səmədov, "Unibank"ın Təşkilatı inkişaf şöbəsinin müdiri Viktoriya Hüseynova, bankın insan resursları üzrə mütəxəssisləri iştirak etmişdir.

Tədbirdə "Unibank"da tələbə və məzunlar üçün iş imkanları haqqında geniş müzakirə aparılmışdır.

# BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində əlamətdar görüş

***Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə şəhid ailələri, əsgər anaları və Vətən Müharibəsi qaziləri ilə görüş keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə öncə torpaqlarımız uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Vətən Müharibəsində qazandığımız şanlı qələbəmizə həsr olunmuş videoçarx nümayiş etdirilib.***

Giriş sözü ilə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov tədbir iştirakçılarını salamlayıb, tarixi qələbə münasibətilə öz təbriklərini çatdırıb. R.Səmədov Vətən Müharibəsində şəhid olan Universitet məzunları və tələbələrinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdən bəhs edib. O vurğulayıb ki, şəhid ailələri, qazilər dövlətimizin hərtərəfli diqqət və qaygısı ilə əhatə olunublar.

Sonra tədbir Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsini icra edən Ələmdar Cabbarlının moderatorluğu ilə davam etdirilib. Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları - kafedra müdiri, Birinci Qarabağ Müharibəsinin veteranı Knyaz Aslan, 20 Yanvar şəhidi Ülvi Bünyadzadənin bibisi professor Almaz Ülvi, Qarabağ qazisi Fərid Camalovun anası Zöhrə Camalova, əsgər anası Vəzufə Xudiyeva, şəhid Ədalət Abbasovun bacısı Kəmalə Məmmədova, fakültənin tələbəsi - şəhid Elnur Allahverdiyevin qardaşı Səbuhi Allahverdiyev çıxış edərək Vətən Müharibəsində qazandığımız şanlı qələbədən danışıblar. Ali Baş Komandanımızın rəhbərliyi ilə şəhidlərimizin canı, qazilərimizin qanı hesabına 30 illik Vətən həsrətimizə son qoyulduğunu vurğulayıblar.

Fakültənin tələbəsi - Vətən Müharibəsi qazisi Hafiz Əhmədov keçdiyi döyüş yolundan danışıb, eyni zamanda Vətən Müharibəsində iştirakına görə dövlət başçısı tərəfindən "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən Müharibəsi iştirakçısı" medalları ilə təltif olunmağından qürur hissi keçirdiyini bildirib.

Tədbir bədii hissə ilə başa çatıb.

# "Media idarəçiliyində yeni çağırışlar" mövzusunda elmi seminar

***Jurnalistika fakültəsində Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasında elmi seminar keçirilib. Doktorant Nurşərəf Tağıyeva "Media idarəçiliyində yeni çağırışlar" mövzusunda məruzə ilə çıxış edib.***

Məruzədə internet mediada yeni çağırışların öyrənilməsi və tətbiqi modelləri hər zaman öz aktuallığı ilə seçildiyini, müasir dövrdə mediada yeni trendlər, həm də media menecmenti sahəsində özünü göstərdiyini diqqətə çatdırıb. Azərbaycan üçün yeni olan media menecmentinin tədqiq olunması, buradakı yeni çağırışların öyrənilməsi və Azərbaycan internet mediasında idarəçilik məsələlərinin araşdırılması, idarəçilik və menecment arasında oxşar və fərqli cəhətlər, menecmentin məqsədi, menecerin funksiyaları, internetin media idarəçiliyinə gətirdiyi yeniliklər, Azərbaycan mediasında menecment anlayışı kimi məsələlərdən bəhs edib.

Seminarda Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri professor Həmid Vəliyev, professor Nəsir Əhmədli, filologiya elmləri doktoru Sabir Məmmədli, dosentlər Pərvanə İbrahimova, Aytəkin Zeynalova mövzu ilə bağlı fikirlərini bildiriblər.

# BDU-nun Şərqşünaslıq fakültəsində "30 gün Şərq" layihəsinin ilk qonağı

***Martın 16-da Şərqşünaslıq fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə "30 gün Şərq" layihəsi çərçivəsində Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri Qaley Allahverdiyev ilə onlayn görüş keçirilib.***

Tədbiri dekan Elxan Əzizov açaraq Şərqşünaslıq fakültəsinin görkəmli məzunları, alimləri barədə məlumat verib, hazırda da böyük diplomatik nüfuza malik olan görkəmli məzunlarından bəhs edib. Sonra layihə çərçivəsində ilk fəxri qonaq - Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri Qaley Allahverdiyevi təqdim edib.

Səfir Qaley Allahverdiyev iştirakçılara öz fəaliyyəti, Şərqşünaslıq fakültəsində oxuduğu illərdən etibarən peşəkar diplomatiya arenasına qədər keçdiyi fəaliyyət dövrü barədə danışıb, tələbələrə elmi və diplomatik sahədə uğurunun sirrini daim çalışmaq olduğuna diqqət çəkərək tələbələrə tövsiyələrini verib, məzunu olduğu fakültə ilə bağlı xatirələrini bölüşüb. Səfir Malayziya və Azərbaycan arasında mövcud diplomatik münasibətlər barədə məlumat verib, ölkələr arasında mədəni əlaqələrdən bəhs edib.

# “Vətən müharibəsi BDU tələbələrinin gözü ilə” rəsm müsabiqəsinin qalibləri elan olundu

*Bakı Dövlət Universitetinin tələbə və magistrantları arasında elan olunmuş “Vətən müharibəsi BDU tələbələrinin gözü ilə” onlayn rəsm müsabiqəsinin nəticələri elan olunub.*


1-ci yer


2-ci yer



3-ci yer

**1-ci yerə** - Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 1-ci kurs magistrantı Qurbanov Fərid Mayıl oğlu;

**2-ci yerə** - Mexanika-riyaziyyat fakültəsinin 2-ci kurs tələbəsi Nəcəfova Çiçək Fizuli qızı;

**3-cü yerə** - Şərqşünaslıq fakültəsinin 4-cü kurs tələbəsi Əhmədova Leyla Riza qızı layiq görülüb.

Qaliblər müvafiq olaraq, I yer - 300 manat, II yer - 250 manat, III yer - 200 manat pul mükafatı və diplomla təltif ediləcək, rəsmlər BDU-nun rəsmi saytı, sosial media hesablarında dərc olunacaqdır.Qalibləri təbrik edir, onlara təhsillərində və yaradıcılıqlarında uğurlar arzulayırıq.

# Müsabiqə qaliblərinin təəssüratları

## *BDU-da keçirilən rəsm müsabiqəsinin qalibi: “Mən qəhrəman xalqın nümayəndəsi olmağımla qürur duyuram və bu əsəri canından keçən şəhidlərimizə, qəhrəman qazilərimizə və cənab Ali Baş Komandana həsr etmişəm”*

***Bakı Dövlət Universitetinin tələbə və magistrantları arasında elan olunmuş “Vətən müharibəsi BDU tələbələrinin gözü ilə” onlayn rəsm müsabiqəsinin qalibləri ilə müsabiqə ilə bağlı təəssüratları və rəsm əsərləri haqqında söhbət etdik.***



***Müsabiqənin qalibi, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs magistrantı Fərid Qurbanov:***

“Vətən müharibəsi xalqımızın birlik simvolu oldu, biz hər birimiz dəmir yumruq kimi Ali Baş Komandanın ətrafında birləşdik. Prezidentimizin uzaqgörən siyasəti, hərbçilərimizin rəşadəti və arxa cəbhədə olan hər bir Azərbaycanlının ürəyinin bir vurması ədaləti bərqərar etdi, ordumuz tarixi zəfər çaldı. Qələbənin yetişəcəyini hər birimiz bilirdik və bu qələbə məni bu rəsm işini çəkməyə ilhamlandırdı. Magistratura pilləsində təhsil aldığım Bakı Dövlət Universitetinin Zəfərlə bağlı rəsm müsabiqəsi elan etdiyi vaxt, mən də müsabiqədə iştirak etməyə qərar verdim. Qalib gələcəyim barədə düşünmürdüm, sadəcə müsabiqədə iştirak etmək istəyirdim və istəyirdim ki, zəfərə həsr olunmuş rəsm əsərimi insanlar görsün. 1-ci yerə layiq görülməyim məni cox sevindirdi. Mən qəhrəman xalqın nümayəndəsi olmağımla qürur duyuram və bu əsəri canından keçən şəhidlərimizə, qəhrəman qazilərimizə və cənab Ali Baş Komandana həsr etmişəm.”

***II yerin sahibi Mexanika-riyaziyyat fakültəsinin 2-ci kurs tələbəsi Çiçək Nəcəfova:***

“Əslində müsabiqə haqqında qrup yoldaşım mənə məlumat verdi, onun sayəsində qatıldım. Belə bir müsabiqənin keçiriləcəyi haqda ilk dəfə eşidəndə sevindim. Çünki Qarabağ müharibəsi mövzusunda şəkil çəkməyi özüm də istəyirdim. Nə çəkəcəyimi düşünəndə ağlıma hadisələrin ilk necə başlaması



gəldi. Tovuz döyüşləri ilə başladı, 14 iyulda general-mayor Polad Həşimovun şəhid olması ilə daha da böyüdü. İlk onda hiss olundu ki, davamı olacaq. Və haqq savaşımız başladı. Daha sonra gənclər, xalqımın qəhrəman övladları könüllü şəkildə cəbhəyə yollandı. Nəhayət, 28 sentyabrda Dövlətzadə Cəbrayıl generalımız Polad Həşimovun intiqamını aldı. O, ona yaxın erməni qulduru ilə əlbəyaxa döyüşə girib, düşmənin bir generalını və polkovnikini təkbaşına məhv etdi. Çəkdiyim şəkildə əlində xarıbülbül və mərmi tutmuş əl isə Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinədir. Və son olaraq çəkdiyim Şuşa məscidi azad olunan mədəniyyətimizi təmsil edir. Şuşa məscidinin yanında isə Şuşa şəhərinin azad olunması əməliyyatının rəhbəri general-leytenant Hikmət Mirzəyevdir.

Belə bir müsabiqədə yer qazanmağım məni çox sevindirir. Universitetimiz hər zaman belə tədbirlərlə fərqlənir. Həm ixtisasımızı yüksək səviyyədə öyrənirik, həm də əlavə bacarıqlarımızı inkişaf etdiririk.”

***III yerin sahibi Şərqşünaslıq fakültəsinin 4-cü kurs tələbəsi Leyla Əhmədova:***



“Mən “Vətən müharibəsi BDU tələbələrinin gözü ilə” rəsm müsabiqəsində 3-cü yerə layiq görüldüyüm üçün çox sevinirəm. Biz hər zaman milli ordumuza güvənərək, doğma Qarabağımızın geri qaytarılacağına inanmışıq. Qələbə günü yaşadığım sevinci necə və kiminlə bölüşəcəyimi bilmirdim. Universitetimizdə təşkil olunan bu müsabiqəni eşitdikdə Qarabağımızın gözəl guşələrini və qələbə sevincimi əks etdirə biləcəyim bir rəsm hazırlayacağım üçün çox sevinmişdim. Öz igid və qorxmazlığı ilə seçilən oğullarımızdan biri olan, el arasında “topçu Vüsal” adlandırdığımız qəhrəman əsgərimizi təsvir edərək Vətənimizin digər igid əsgərlərini və şəhidləri də yad edə biləcəyimi düşündüm. Həmçinin, azad olunan gözəl torpaqlarımızı da öz əl işimdə əks etdirməyi özümə borc bildim.

BDU tələbələrinə öz qələbə sevinclərini əks etdirə biləcəkləri bir müsabiqə keçirdikləri üçün təşkilatçılara və Universitet rəhbərliyinə dərin təşəkkürümü bildirirəm.”

***Xəyalə Qulamova,***
*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin əməkdaşı*

**Buraxılışa məsul:** Afaq Sadıqova
**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Əhmədli
**Dizayn - tərtibat:** Aynur Qurbanqızı
Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 31.03.2021
**Tiraj:** 1000 nüsxə
Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.
Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.